QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 162 (5882) **6 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev Bakıda "Şimal-2" elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib



Səh 2

4

**ICAPP-ın Baş katibi: Azərbaycan Asiya regionunda önəmli yerə malik bir ölkədir**



4

**Yerevan Moskvanı şantaj edir**



5

**İkinci binadakı mənzillərə dair çıxarışlar jurnalistlərə təqdim ediləcək**



# Prezident İlham Əliyev Bakıda "Şimal-2" elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakıda "Şimal-2" elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.***

AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev, Yaponiyanın Xarici İşlər nazirinin parlamentar müavini Kenji Yamada, Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verdilər.

Qeyd edək ki, 1950-ci illərdə iki mərhələdə istifadəyə verilən "Şimal" Elektrik Stansiyasının 1988-ci ildə birinci, 1998-ci ildə ikinci növbəsi tam köhnəldiyindən istismardan çıxarılmışdı. 1998-ci ildə ulu öndər Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq "Şimal-1" Elektrik Stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb olunmasına nail olub. Beləliklə, 2000-ci ildə əsası qoyulan 400 meqavatlıq "Şimal-1" stansiyası 2002-ci ildə istismara verilib. 2011-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyasının təməli qoyulub. Ötən ilin payızından başlayaraq "Şimal-2" Elektrik Stansiyasının tikinti və quraşdırma prosesləri sürətləndirilərək 2019-cu ildə işlər tamamlanıb.

Ümumi qoyuluş gücü 800 MVt olan "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının vahid mərkəzdən idarə edilməsi, istismar prosesində əməliyyatların operativliyinin təmin olunması və ekstremal qəza vəziyyətlərində işdə pozuntuların operativ aradan qaldırılması nəzərə alınaraq ərazidə Mərkəzi İdarəetmə Binası inşa edilib.

Binada elektrik stansiyasının tarixini əks etdirən eksponatların sərgiləndiyi muzey də fəaliyyət göstərir. Burada iclas və konfrans zalları da yaradılıb. Yeni istifadəyə verilən idarəetmə binasında vahid dispetçer idarəetmə mərkəzi və stansiyanın mikro SCADA sistemi yaradılıb. Stansiyanın enerjisisteminin ümumi idarəetmə sisteminə inteqrasiyası üçün serverlər quraşdırılıb və optik kabel xətti çəkilib. Yeni binada stansiyaya aid olan bütün kommunikasiya əlaqələrinin vahid sxemə uyğun birləşdirilməsi təmin edilib. "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının birlikdə il ərzində gözlənilən istehsalı 5,7 milyard kilovat-saatdır.

Stansiyada Yaponiyanın "Mitsubishi" şirkətinin istehsalı olan 138 MVt gücündə buxar, 267 MVt gücündə qaz turbinləri, 560 MVA gücündə elektrik generatoru və onların köməkçi sistemləri quraşdırılıb. Enerji blokunda istehsal olunan elektrik enerjisi 480 MVA gücündə olan blok transformatordan qapalı tipli yarımstansiya vasitəsilə elektrik veriliş xətlərinə ötürülür. Müxtəlif gərginlik sinfinə malik olan paylayıcı qurğular arasında əlaqəni təmin etmək üçün 2 avtotransformator quraşdırılıb. Burada istehsal olunan elektrik enerjisinin ötürülməsi məqsədilə Abşeron regionunda 220 kV-luq dairəvi sxem qurulub, "Şimal" Elektrik Stansiyasının "Sumqayıt ES" və "Abşeron YS" ilə əlaqələndirilməsi üçün 65 kilometr uzunluğunda 220 kV-luq dörd hava elektrik veriliş xətti istismara verilib. Qəza rejimlərində stansiyanın vacib sistemlərinin elektrik enerjisi ilə qidalandırılması üçün qəza dizel generatoru quraşdırılaraq xüsusi sərfiyyat sxeminə qoşulub və avtomatik ehtiyatdan qoşulması təmin edilib.



***Ardı Səh. 3***

# Prezident İlham Əliyev Bakıda “Şimal-2” elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib




Əvvəli-Səh-2

Prezident İlham Əliyev “Şimal-2” Elektrik Stansiyasını işə saldı.

Hazırda ən yüksək faydalı iş əmsalına malik olan “Şimal-1” və “Şimal-2” elektrik stansiyaları birlikdə respublika üzrə elektrik enerjisi istehsalının 20 faizini, Bakı və Abşeron yarımadası üzrə 40-50 faizini təşkil edəcək. “Şimal” Elektrik Stansiyası enerjisistemin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına əsaslı təsir etməklə yanaşı, il ərzində 77 milyon kubmetr təbii qazın qənaətinə və regionlardan Bakı şəhərinə verilən enerjinin miqdarının 20 faiz azalması nəticəsində elektrik enerjisinin uzaq məsafədən ötürülməsindən yaranan 199 milyon kVts elektrik enerjisi itkisinə qənaət olunmasına imkan yaradacaq. Bundan başqa, “Şimal” Elektrik Stansiyası 57,4 faiz faydalı iş əmsalına malikdir ki, bu da Cənubi Qafqaz regionunda ən yüksək faydalı iş əmsalı deməkdir. Elektrik stansiyası il ərzində 3,2 milyard kVts elektrik enerji istehsal edəcək və hər bir kVts elektrik enerjisinin buraxılışına 214,3 qram şərti yanacaq sərf ediləcək ki, bu da enerjisistemin ümumi göstəricisindən 65 qram azdır.

Stansiyanı yüksək təzyiqli yanacaqla təmin etmək məqsədilə yeraltı qaz kəməri, qaz tənzimləyici və təmizləyici qovşaq, qazqızdırıcı qurğular və kompressor stansiyası tikilib. Stansiyanın buxar turbinlərinin kondensatorları və avadanlıqları Xəzər dənizindən götürülən su vasitəsilə soyudulur. Bu məqsədlə Xəzər dənizindən 140 metr uzunluğunda soyuducu su kanalı, hovuz, su xətti və ümumi məhsuldarlığı saatda 52 min kubmetr olan sahil nasos stansiyası, o cümlədən buxar turbininin kondensatorundan çıxan soyuducu suyun Xəzər dənizinə qaytarılması üçün boru xətti inşa olunub. Stansiyanın texniki və içməli suya olan tələbatının təmin edilməsi və su ehtiyatının yaradılması məqsədilə ərazidə duzsuzlaşdırma qurğusu və digər zəruri infrastruktur yaradılıb. Stansiyanın yanğın təhlükəsizliyinin təmin edilməsi üçün ərazidə yanğınsöndürmə sistemi də müasir səviyyədə qurulub.

Ətraf mühitin mühafizəsi məqsədilə stansiyada əksosmos qurğusu, xüsusi ekoloji monitorinq sistemi, sənaye tullantılarının və çirkab sularının təmizlənməsi qurğuları inşa olunub. Stansiyanın avadanlıqlarının normal istismarı və reqlament üzrə texniki xidmətin aparılması məqsədilə stansiyada ekspress və kimya, elektrotexniki və sınaqdiaqnostika laboratoriyaları, müxtəlif müasir dəzgahlarla komplektləşdirilmiş mexaniki təmir emalatxanası və qapalı mərkəzi anbar binası tikilib, təhlükəsizliyin təmin edilməsi məqsədilə zəruri işlər görülüb, videomüşahidə sistemi yaradılıb. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb, müxtəlif ağac və gül kolları əkilib.

Dövlətimizin başçısı stansiyanın kollektivi ilə xatirə şəkli çəkdirdi.

Stansiyanın kollektivinə uğurlar arzulayan Prezident İlham ƏLİYEV dedi:

-Təbrik edirəm. Stansiyanın açılışı çox əlamətdar hadisədir. Azərbaycanda elektrik enerjisinə olan tələbat artır və əlbəttə ki, istehsal gücləri bu tələbata uyğun olmalıdır. Ona görə bu stansiyanın çox böyük əhəmiyyəti var.

Yaponiya şirkətlərinə də təşəkkürümü bildirirəm, burada çox fəal işləyiblər, bu stansiyanı yüksək keyfiyyətlə qurublar. Stansiyanın qurulması Yaponiya-Azərbaycan əməkdaşlığının təzahürüdür və Xarici İşlər nazirinin müavini də xüsusilə bu məqsədlə Azərbaycana səfər edib. Əminəm ki, bizim ikitərəfli əlaqələrimiz gələcəkdə də uğurla inkişaf edəcək, çünki hələ bir çox layihələr icra olunmalıdır.

Bu stansiyanın fəaliyyətə başlaması elektrik enerjisi sahəsində çox əlamətdar hadisədir. Mən şadam ki, biz bu gün bu stansiyanın açılışını edirik. Azərbaycanda bundan sonra da sənaye istehsalının və iqtisadiyyatın artımı elektrik enerjisi mənbələri ilə təmin edilməlidir. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

XXX

Respublikamızda həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlar, çoxsaylı sənaye və aqrar-sənaye obyektlərinin yaradılması elektrik enerjisinə və ehtiyat generasiya güclərinə tələbatı daha da artırdığından “Şimal-2” Elektrik Stansiyasının istismara verilməsi çox əhəmiyyətlidir. Bu, iqtisadi cəhətdən istehsal prosesinin səmərəliliyinin yüksəlməsinə, elektrik enerjisinin istehsalına sərf olunan yanacağın əhəmiyyətli dərəcədə azalmasına, ixrac potensialının artırılmasına və digər texniki imkanların genişləndirilməsinə şərait yaradır. Bütün bunlar isə ümumilikdə ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsi istiqamətində dövlət tərəfindən atılan addımların ardıcıl və məqsədyönlü şəkildə davam etdiyini göstərir.

# “Azərbaycan ilə BP arasında uzun illər uğurlu əməkdaşlıq həyata keçirilib”

*Prezident İlham Əliyev BP-nin Direktorlar Şurasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də BP-nin Direktorlar Şurasının sədri Helqe Lundun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə BP arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, neft və qaz sənayesinin inkişafının Azərbaycan iqtisadiyyatının şaxələndirilməsindəki rolu vurğulandı, Bakıda və regionlarda böyük infrastruktur layihələrinin reallaşdırıldığının önəmi qeyd edildi. Sonuncu dəfə 2014-cü ildə Azərbaycana səfər etdiyini deyən BP-nin Direktorlar Şurasının sədri Helqe Lund ötən dövr ərzində Bakıda gedən böyük inkişaf proseslərinin şahidi olduğunu dedi. Sentyabrın 20-də “Əsrin müqaviləsi”nin 25 illiyinin qeyd ediləcəyini vurğulayan qonaq bu layihənin Azərbaycanın inkişafındakı rolunu xüsusi qeyd etdi. Söhbət zamanı Xəzərin Azərbaycan sektorunda əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



# ICAPP-ın Baş katibi: Azərbaycan Asiya regionunda önəmli yerə malik bir ölkədir

***Sentyabrın 5-də Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini Asiyanın müxtəlif dinlərin və mədəniyyətlərin cəmləşdiyi böyük bir region olduğunu bildirib. Qeyd edib ki, bu regiondakı ölkələrin bir çoxunda iqtisadi inkişaf sürətlə gedir. Bununla paralel olaraq, regionda baş verən münaqişələr nəticəsində yoxsulluqdan əziyyət çəkən ölkələr də var. Bu baxımdan ICAPP-ın üzərinə mühüm məsuliyyət düşür.***

Baş Nazirin müavini, həmçinin vurğulayıb ki, Azərbaycanın hakim Yeni Azərbaycan Partiyası ICAPP-ın beynəlxalq tədbirlərində iştirak edir və fəaliyyətini dəstəkləyir. Əli Əhmədov qeyd edib ki, Azərbaycan son illər bir sıra regional və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. O, ümidvar olduğunu bildirib ki, sentyabrın 6-da işə başlayacaq ICAPP Gənclər Birliyinin və Qadınlar Birliyinin Bakı Konfransı bu nüfuzlu beynəlxalq qurumun daha da inkişaf etməsi işinə öz töhfəsini verəcək.

ICAPP-ın Baş katibi Park Ro-byug və Koreya parlamentinin üzvü Lee Sang Don təşkilatın Azərbaycan Hökuməti ilə əlaqələrindən bəhs ediblər. Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən Park Ro-byug qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, eyni zamanda, ICAPP ilə YAP-ın əməkdaşlığından danışıb. Baş katib qeyd edib ki, ICAPP-ın daimi komitəsinin 23 üzvü arasında YAP da təmsil olunur. Bu, göstərir ki, Azərbaycan Asiya regionunda önəmli yerə malik bir ölkədir.

# Baş Nazir Novruz Məmmədov Yaponiyanın Xarici İşlər Nazirinin müavini ilə görüşüb



Sentyabrın 5-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Yaponiyanın Xarici İşlər Nazirinin müavini Kenji Yamadanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Baş Nazir Novruz Məmmədov Azərbaycan ilə Yaponiya arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib. Xatırladıb ki, iki gün sonra - sentyabrın 7-də iki ölkə arasında diplomatik münasibətlərin yaranmasının 27 ili tamam olacaq. Bunu əlamətdar hadisə adlandıran Baş Nazir, Azərbaycanın müstəqilliyinin bərpasından sonra iki ölkə arasında münasibətlərin sürətlə inkişaf etdiyini bildirib.

Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Yaponiyaya rəsmi səfərlərini xatırladan Novruz Məmmədov yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında əhəmiyyətini xüsusi vurğulayıb.

Yaponiyanın Xarici İşlər Nazirinin müavini Kenji Yamadanın Azərbaycan Respublikasının Prezidentinin iştirak etdiyi "Şimal-2" Elektrik Stansiyasının istismara verilməsi mərasiminə qatılması da iki ölkənin əlaqələri üçün tarixi əhəmiyyət daşıyır. Baş Nazir Novruz Məmmədov dövlətimizin başçısı İlham Əliyevin "Şimal-2" Elektrik Stansiyasının kollektivi ilə görüşündəki çıxışını xatırladaraq bildirib ki, bu stansiyanın qurulması Yaponiya-Azərbaycan əməkdaşlığının təzahürüdür. Novruz Məmmədov Azərbaycan ilə Yaponiya arasında energetika, iqtisadiyyat, sərmayə qoyuluşu, səhiyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, digər istiqamətlərdə də əlaqələrin inkişafı üçün böyük potensialın mövcudluğunu diqqətə çatdırıb.

Görüşdə qeyd olunub ki, Azərbaycanın Yaponiya ilə münasibətlərində iqtisadi əməkdaşlıq prioritet istiqamətlərdəndir. Yaponiya şirkətlərinin Azərbaycan iqtisadiyyatında təmsil olunmasının ikitərəfli münasibətlərin inkişafı üçün böyük əhəmiyyət daşıdığı vurğulanaraq, Azərbaycanda yaradılan əlverişli investisiya mühiti haqqında qonağa ətraflı məlumat verilib.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən Yaponiyanın Xarici İşlər Nazirinin müavini Kenji Yamada səmimi qəbula görə minnətdarlığını ifadə edib. Kenji Yamada xüsusi vurğulayıb ki, əlverişli geosiyasi mövqedə yerləşən, logistik mərkəzə çevrilən və enerji təhlükəsizliyi baxımından mühüm rol oynayan Azərbaycan regionda Yaponiyanın vacib tərəfdaşıdır.

# Yerevan Moskvanı şantaj edir




"Perviy Armyanskiy informasionnıy" portalında Sarkis Arsruninin "Yerevanın Moskvaya layiqli cavabı: Rusiyada başa düşməlidirlər ki, vəziyyət dəyişib" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, müəllif əvvəlcə Ermənistanın baş naziri Nikol Paşinyanın "Nuvel de Armeni" nəşrinə müsahibəsindən bir sitat gətirir. Paşinyan həmin müsahibədə belə mülahizə yürüdür ki, Yerevan Rusiya ilə münasibətlərdə çoxəsrlik komplekslərdən yaxa qurtarmalı və özünü bərabər tərəfdaş kimi göstərməlidir. Jurnalist baş nazirdən soruşur ki, Yerevan Ermənistan ilə Rusiyanın müttəfiqlik münasibətlərinin qorunub saxlanmasına Moskvanın şübhələrini aradan qaldıra bilibmi? Paşinyan bu sualın cavabında deyib: "Biz suveren tərəfdaşlarıq və əgər onların bizə şübhə etmək hüququ varsa, bizim də onlara şübhə etmək hüququmuz var".

Paşinyan daha sonra deyib: "Mən hesab edirəm ki, bizim münasibətlərimiz bütövlükdə bu əsasda inkişaf etməli və fasiləsiz yaxşılaşmalıdır. Biz hər kəsin ləyaqətinə hörmət edən münasibətlər qurmalıyıq. Əminəm ki, bizim bugünkü münasibətlərimiz bu cür ləyaqətlə əlamətdardır. Kimsə bizə nə qədər şübhə edə bilərsə, bizim də həmin tərəfə eynilə o qədər şübhə etmək hüququmuz var. Əgər birisi hesab edirsə ki, biz tərəfdaş kimi öz öhdəliklərimizi lazımi səviyyədə yerinə yetirmirik, bizim də belə hesab etməyimizə icazə verilir. Qoy heç kəs elə düşünməsin ki, şübhələrin aradan qaldırılması yalnız bizim işimizin bir hissəsi olmalıdır".

Arsruni baş nazirin söylədiklərində "müsahibənin ən mühüm epizodu" adlandırdığı məqamlara əsaslanaraq belə bir "dərin mənalı" nəticəyə gəlir ki, Paşinyan Ermənistan-Rusiya münasibətlərində "müttiliyi aradan qaldırır". Müəllifin fikrincə, rusiyalı siyasi fəal, Rusiyada qadağan edilmiş "Rus etnosiyasi birliyi" təşkilatının Kaluqa bölməsinin sabiq rəhbəri, Ermənistanda qaçqın statusu almış Vitali Şişkinin ətrafında yaranmış vəziyyət buna əyani sübut hesab edilməlidir. Eyni zamanda, Arsruni gileylənir ki, Moskvada, elə Ermənistanın siyasi həyatının müəyyən seqmentində də keyfiyyətcə yeni Ermənistan-Rusiya münasibətlərini qəbul etməyə hazır deyildirlər.

Müəllif ondan narazıdır ki, özünün təbirincə desək, "köhnə sistem"in nümayəndələri Ermənistan-Rusiya münasibətlərinə "öldürücü zərbə vurulmasına" - Şişkinə siyasi sığınacaq verilməsinə görə Paşinyanı amansızcasına tənqid edirlər. O vurğulayır ki, prinsip etibarilə müttəfiq ölkələr bir-birinin vətəndaşlarına, xüsusən həmin vətəndaşların əməllərində siyasi iz olduqda, qaçqın statusu verməkdən qarşılıqlı imtina edirlər. Arsruni bunun həqiqət olması ilə razılaşır, lakin onun xoşuna gəlmir ki, Paşinyanın bugünkü opponentləri Ermənistan-Rusiya münasibətlərini, onun yazdığı kimi, vassal rejimində təsəvvür edirlər. Bu halda Moskva nə istəsə edə bilər, Yerevan isə özünü təmizə çıxarmağa çalışan "kiçik qardaş" statusunda çıxış etməlidir.

Müəllif yazır: "Köhnələr unudurlar ki, kriminal oliqarxiyanın görkəmli nümayəndəsi Miqran Poqosyana və 1 mart işinin iki mühüm fiqurantına himayədarlıq etməklə müttəfiqlik münasibətlərinin ruhunu birinci pozan məhz Moskva olub". Onun sözlərinə görə, Ermənistanın hakimiyyət orqanları "Moskvaya elə onun özü kimi cavab verməklə" tam layiqli hərəkət ediblər.

# Naxçıvan şəhərindəki məscid kompleksinin inşası davam etdirilir





***Naxçıvanın qədim dövlətçilik tarixi, zəngin mədəniyyəti və müasir inkişaf səviyyəsi İslam dəyərlərinə münasibətdə də özünü göstərir. Bu gün muxtar respublikanın inkişafında milli və mənəvi dəyərlərimizə qayıdış xüsusi yer tutur. Yeni məscidlər tikilir, dini-tarixi abidələr və ziyarətgahlar bərpa edilir. Hazırda Naxçıvan şəhərində yeni məscid kompleksinin inşası da bu sahədə görülən işlərin tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məscid kompleksində aparılan inşaat işləri ilə tanış olub.***

Məlumat verilib ki, 6400 kvadratmetr sahədə inşa olunan kompleksdə məscidlə yanaşı, Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şura üçün inzibati bina və mərasim evi yerləşəcəkdir. Məscid binasının fasadında və daxilində işlər milli nəqqaşlıq elementləri və dini rəmzlər əsas götürülərək aparılır. İslam dəyərlərinə və Naxçıvan memarlıq üslubuna uyğun tərtibat verilir, pəncərələr şəbəkə formasında yığılır. Havalandırma, işıqlandırma və istilik sistemləri ilə təchiz olunacaq məscidin 40 metrlik iki minarəsində və 12 metrlik 15 günbəzində də son tamamlama işləri görülür. Məsciddə qadın və kişilər üçün ayrıca ibadət zalları, mədrəsə, həyətdə isə dəstəmaz yerləri istifadəyə veriləcəkdir. Ali Məclisin Sədri məscidin daxilində və fasadında işlərin keyfiyyətlə aparılması, xüsusilə mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar verib.



## Azərbaycanla Rusiya arasında təhlükəsizlik sahəsində qarşılıqlı əməkdaşlıq üçün yeni imkanlar açılır

Xəbər verildiyi kimi, sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə ikigünlük rəsmi səfərdə olan Rusiya Federasiyasının Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Təhlükəsizlik şuralarının katibləri - Ramil Usubovla Nikolay Patruşev arasında da görüş olub. Görüşdə ölkələrimiz arasındakı əlaqələrin bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirən Ramil Usubov hər iki dövlətin başçıları - cənab İlham Əliyevin və cənab Vladimir Putinin siyasi iradələrinə uyğun olaraq ölkələrimiz arasında strateji tərəfdaşlığın, ən müxtəlif sahələr üzrə işbirliyinin və inteqrasiyanın daha da dərinləşdiyini məmnunluqla qeyd edib. O, eyni zamanda, ikitərəfli münasibətlərdə təhlükəsizlik fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyini deyib.

Beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın yeni çağırış və təhdidlərinin artaraq qlobal xarakter aldığını nəzərə çatdıran R.Usubov ekstremizmi, aqressiv separatizmi təbliğ edən radikal elementlərin vaxtında müəyyənləşdirilməsi və qanunsuz fəaliyyətlərinin qarşısının alınması istiqamətində hər iki dövlətin müvafiq orqanları tərəfindən zəruri tədbirlərin bundan sonra da intensiv həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Tədbirin yüksək səviyyədə təşkilinə görə azərbaycanlı həmkarına təşəkkürünü ifadə edən N.Patruşev Azərbaycanla əməkdaşlığın bütün istiqamətlərdə genişləndirilməsinə Rusiya tərəfinin hər zaman böyük önəm verdiyini, hazırkı görüşün təhlükəsizlik sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açacağına, sıx peşəkar əlaqələrin yeni məzmunla, müasir forma və metodlarla zənginləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Səmimi və işgüzar şəraitdə keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub. İki ölkənin Təhlükəsizlik Şurası katiblərinin görüşü çərçivəsində Rusiya Federasiyası Təhlükəsizlik Şurası katibinin müavini Rəşid Nurqaliyevlə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərliyi ilə mövcud plana müvafiq olaraq terrorçuluğa, ekstremizmə qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, həmçinin informasiya təhlükəsizliyinin təmin olunması üzrə əməkdaşlıq məsələləri mövzusunda ekspert məsləhətləşmələri keçirilib.

## İkinci binadakı mənzillərə dair çıxarışlar jurnalistlərə təqdim ediləcək

Əmlak Məsələləri Dövlət Komitəsi jurnalistlərin ikinci binasının sənədləşdirilməsi ilə bağlı məsələyə aydınlıq gətirib. SİA Əmlak Məsələləri Dövlət Komitəsinin məlumatına istinadən xəbər verir ki, Prezident İlham Əliyevin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün inşa edilmiş və onların mülkiyyətinə verilmiş ikinci binada yerləşən mənzillərə dair Çıxarışlar Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən yaxın günlərdə səyyar mobil qeydiyyat xidməti çərçivəsində həmin binanın həyətində media nümayəndələrinə təqdim ediləcəkdir.



# Sosial islahatlarda LİDER ölkə

## Uşaq pulunun verilməsinin bərpası uğurlu sosial siyasətin tərkib hissəsidir

***Son illər respublikamızda əhalinin sosial müdafiəsinin, rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər, imzalanan fərman və sərəncamlar insanların həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində mühüm rol oynayıb. Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə, qeyd etdiyi kimi, 2019-cu ilin birinci yarısında Azərbaycan öz inkişaf dinamikasını qoruyub-saxlayıb, qarşıya qoyulan vəzifələr icra edilib.***





Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində, əldə olunan əlavə gəlirlər prioritet sahə olan sosial sferanın inkişafına da zəmin yaratdı. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdan gələn dövrdə əhalinin sosial durumunun daha da yüksəldilməsi prioritet təşkil edəcək. Bu fikirlərin, məntiqi nəticəsi olaraq, 2019-cu ilin əvvəlindən başlayaraq, ölkə başçısı tərəfindən iki böyük sosial islahat paketi təsdiq edildi. Birinci paket 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılması, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manatın yönəldilməsini nəzərdə tutub və artıq icra olunub. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri isə tamamlanmaqdadır və sentyabrın 1-dən minimal əmək haqqının 250 manata çatdırılması, əlavə olaraq, 400 min nəfərin maaşının 20-50 faiz artırılması, 750 min pensiyaçıya verilən vəsaitin oktyabrın 1-dən yüksəldilməsi nəzərdə tutulur. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat, ümumilikdə, 4,2 milyon vətəndaşın əhatə edilməsini və 5,2 milyard manatın sərf olunmasını nəzərdə tutur.

Prezident İlham Əliyevin rəhbərliyi altında sosial qayğıya daha çox ehtiyacı olan aztəminatlı ailələrin, xüsusilə, şəhid ailələrinin, Qarabağ müharibəsi veteranlarının, o cümlədən, məcburi köçkünlərin qarşılaşdıqları əsas problemlərin həlli, onların həyat tərzinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan layihələr də xüsusi önəm kəsb edir. Təkcə, onu demək kifayətdir ki, Azərbaycanda minimal pensiya 72 faiz artırıldığına görə, ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə, MDB də birinci olacaq. Minimal əmək haqqının 250 manata çatdırılmasından sonra isə, Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşmaqdadır.

Bundan başqa, müavinətlərin və tələbə təqüdlərinin artırılması, 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən artıq tələbəni, ümumilikdə, 1,3 milyon insanı əhatə edib. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə, bu kateqoriyaya aid olan insanların sosial durumunun xeyli yaxşılaşdırılmasını təmin edib.

### Uşaq pulları ilə bağlı yeni xəbər - payızda qərar veriləcək

Son zamanlar uşaqlar üçün nəzərdə tutulmuş sosial müavinətlərin ("uşaq pulu") bərpa edilməsi ilə bağlı müxtəlif fikirlər səslənib. Hətta Milli Məclisin üzvləri də çıxışlarında dəfələrlə uşaq pulunun bərpa edilməsini zəruri hesab ediblər. Qeyd edək ki, 2006-cı il 1 iyun tarixindən etibarən Azərbaycanda "uşaq pulu" verilmir.

Məlumdur ki, dünyanın inkişaf etmiş ölkələrində sosial müavinət hazırda da mövcuddur. 18 yaşına qədər uşaqların dövlət tərəfindən təminatı Avropada mühüm əhəmiyyət kəsb edir. Rusiyada "uşaq pulu" birdən-birə 50 rubldan 10 min rubla qədər artırıldı. 18 yaşına qədər "uşaq pulu" verilir. İtaliya, Ukrayna, Belarus, Qazaxıstan, Avstraliya, Almaniya, Fransa, ABŞ, İsveç, Polşa, Yeni Zellandiya, Cənubi Koreya, əksər Mərkəzi və Şərqi Avropa ölkələrində və daha bir çox ölkələrdə "uşaq pulu" verilir...

Bu, bir növ insan həyatına verilən dəyərin göstəricisidir. Əslində, uşaqlar müəyyən yaş həddinə çatana qədər "uşaq pulu"nun verilməsi, bir baxımdan da, zəruri haldır. Bunu zəruri edən səbəblərdən başlıcası isə, bir sıra ailələrin aztəminatlı olmasıdır və aztəminatlı olan ailələrin onlar üçün nəzərdə tutulan sosial müavinəti ala bilməməsidir. Sosial müavinətlər aztəminatlı ailələr üçün nəzərdə tutulur, lakin buna baxmayaraq, bu gün yüzlərlə ailə haqqı olanı ala bilmir. Nəticədə, maddi sıxıntılara görə ailədaxili problemlər yaranır. Uşaqlar üçün lazım olan qida, geyim və digər şeyləri valideynlər, məhz maddi sıxıntıya görə ala bilmirlər. Yəqin ki, uşaq qidalarının digərləri ilə müqayisədə daha baha başa gəldiyi də məlumdur. Həmçinin, onların sağlamlığına da qayğı göstərmək lazımdır ki, bunu da maliyyə hesabına etmək mümkündür. Buna görə də, ən azından, uşaqların xərclərinin ödənməsi üçün "uşaq pulu"nun bərpa edilməsi vacibdir.

### Azərbaycanda "uşaq pulu" nə vaxt bərpa olunacaq?

İnsanların sosial durumlarının yaxşılaşdırılması sahəsində atılan uğurlu addımlardan biri də ölkədə uşaq pulunun bərpa olunması ilə bağlı məsələnin parlamentin payız sessiyasının plenar iclasında müzakirəyə çıxarılması dövlətin öz vətəndaşına daima diqqət və qayğısının müsbət nəticəsidir.

### Siyavuş Novruzov: "Uşaq pulunun verilməsi bərpa olunmalıdır"

YAP İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar komitəsinin sədri Siyavuş Novruzov qeyd edib ki, Prezidentin sosial sahədə həyata keçirdiyi siyasətin əsas qayəsi, məhz budur: "Bu siyasətin tam mərkəzində Azərbaycan insanı durur. Biz pensiya, aylıq müavinətlər və uşaq pulları ilə bağlı parlamentdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə müzakirələr aparırıq. Çalışırıq ki, xüsusilə, uşaq pulu ilə bağlı elə bir forma müəyyənləşdirək ki, uşaqların zəruri tələbatlarını qarşılaya bilsin, eyni zamanda, ailənin maddi yükünü azaltsın".

S.Novruzov onu da vurğulayıb ki, "bu, dünyada, həmçinin, postsovet məkanında necədir və sair... Tutaq ki, hər uşağa 30 manat pul verirsən, əslində, bunu verməsən, daha yaxşı olar. Elə bir variant seçməliyik ki, valideynin üstündən yük götürülsün. Məsələn, uşağın məktəb ləvazimatı, digər məsələləri, qidalanması var, gərək pul ona çatsın. Həm də elə olmalıdır ki, dövlətin bu vəsaiti ayırmağa gücü çatsın. Hər şey qaydalar çərçivəsində olmalıdır".

### Musa Quliyev: "Uşaq pulunun bərpası, sosial müavinətin artırılması dövlətin öz gələcəyinə sahib çıxmasını bir daha açıq şəkildə ortaya qoyur"

Milli Məclisin Əmək və Sosial Siyasət, həmçinin, Səhiyyə Komitəsinin üzvü Musa Quliyev sözügedən məsələ ilə bağlı açıqlamasında bildirib ki, ötən əsrin 90-cı illəri və 2000-ci illərin lap əvvəllərində Azərbaycanda uşaq pulu çox cüzi idi: "Əslində, ona uşaq pulu da demək olmazdı, həmin pul heç nəyə yaramırdı. Ona görə də, 2000-ci illərdə uşaq pulu ləğv olundu və o, ünvanlı sosial yardımla əvəzləndi. Daha doğrusu, maddi imkanları aşağı olan insanlar ünvanlı sosial yardım alarkən, bu məsələ də onun içində həllini tapdı. İndi 0-3 yaş arasında uşaqlarla bağlı məsələ gündəmdədir və çox gözəl ideyadır. Mən onu dəstəkləyirəm. Amma ola bilər ki, bu məsələ həllini tapacağı təqdirdə, o, 0-3 yox, 0-6 yaşlarında və ya ondan bir qədər yuxarı yaş həddində müəyyənləşdirilməlidir".

M.Quliyev qeyd edib ki, bu məsələ ilə bir daha dövlət öz vətəndaşına, öz gələcəyi olan nəslə, uşaqlara sahib çıxmış olur: "Yəni dövlət deyir ki, bu uşaq sənin olduğu qədər, həm də mənimdir. Onun sağlam, təhsilli, cəmiyyət üçün yararlı və faydalı böyüməsi sənin qədər mənim də vəzifəmdir, mənim də mənafeyimə uyğundur. Həm də bildiyiniz kimi, dünyada insan kapitalı deyilən bir anlayış var ki, o da, üç hissədən ibarətdir: sağlam, təhsilli və zəngin insan. Odur ki, Azərbaycan dövləti, dövlət başçısı daim bu məsələni dilə gətirir, öz insanını sağlam, təhsilli və zəngin görmək istəyini ortaya qoyur və zaman-zaman bu istiqamətdə addımlarını atır. Bir də uşaq pulu ailələrin gəlir səviyyəsindən asılı olmayaraq, bütün uşaqlara verilməlidir. Çünki bu, dövlətin öz uşağına verdiyi vəsaitdir və uşaqlar arasında fərq qoyulmamalıdır!"

Siyasi ekspert Vüqar Bayramov deyib ki, "uşaq pulu"nun bərpası üçün imkanlar var, son qərarı hökumət verməlidir: "Sosial paketin də təqdim olunduğunu nəzərə alsaq, "uşaq pulu"nun bərpasını mümkün hesab edirik. Amma bütün hallarda qərarı hökumət verir. Nəticəni bilmək üçün hökumətin rəsmi qərarı olmalıdır. Ümid edirik ki, yaxın vaxtlarda "uşaq pulu"nun bərpasını görə biləcəyik".

Ekspert deyib ki, parlament üzvləri arasında məsələ ilə bağlı fərqli mövqelər var: "Bütövlükdə, bütün uşaqlara ödənilməsi təklif edilən aylıq uşaq pulunun məbləği 135 milyon 104 min manat edir. Bu, illik 1 milyard 612 milyon manat deməkdir. Bəzi uşaqların müavinət aldığını nəzərə alsaq, məbləğ nisbətən aşağı olacaq. Məsələn, 58,4 min uşaq fiziki imkanları məhdud olduğu üçün sosial müavinət alır. Tətbiq etdiyimiz mexanizmdə illik məbləğ nisbətən böyük görünə bilər, amma biz bu məbləğin ödənilməsi yollarını da təklif edirik. Əvvəlla, bu ilin dövlət büdcəsinin xərcləri 24 milyard 780 milyon manatdır. Bu, o deməkdir ki, təklif edilən illik uşaq pulu məbləği ümumi büdcə xərclərimizin 6,5 faizini təşkil edəcək. Göründüyü kimi, büdcənin mövcud imkanları xərci qarşılaya bilər. Bunun belə, büdcə xərclərinin strukturunda dəyişikliklər edib, bu istiqamətə vəsait ayırmaq mümkündür. Özünü maliyyələşdirən rayonların sayını artırmaqla və eləcə də, rayonların inzibati birləşdirilməsi yolu ilə onların sayını azaltmaqla, ünvanlı sosial yardım alanların özünüməşğulluq proqramına transfer etməklə və ölkəmizdə son illər infrastrukturun inkişaf etməsi səbəbindən, büdcənin investisiya xərclərinin optimallaşdırmaqla, uşaq pullarının ödənilməsi üçün vəsaitin ayrılmasını təklif edirik".

Beləliklə də, uşaq pulunun bərpası ilə bağlı məsələnin Milli Məclisin payız sessiyasında müzakirəyə verilməsi dövlətin də bu məsələdə maraqlı olduğunu göstəricisidir.

**RƏFİQƏ KAMALQIZI**

# Uşaq pulu ilə ailələrin rifahını yüksəltmək mümkündürmü?

## *Yaxud, ünvanlı sosial yardımın və uşaq pulunun zəngin və kasıb ailə fərqi qoymadan verilməsi sosial ədalət hesab edilə bilərmi?*

***Məlum olduğu kimi, 2006-cı il 1 iyun tarixindən etibarən Azərbaycanda uşaqlar üçün müavinət verilmir. Həmin dövrdə müavinətin ləğvi ünvanlı sosial yardımın tətbiqi və uşaqlar üçün verilən pulun məbləğinin çox aşağı olması ilə əsaslandırılmışdı. Lakin son vaxtlar uşaqlar üçün verilən müavinətin bərpası məsələsi mütəmadi olaraq gündəmə gətirilir. Mövzu ətrafında spekulyativ manipulyasiya, siyasi mübarizədə iqtidara qarşı təbliğati tezis olaraq istifadə etmə cəhdləri intensivləşib.***

Müxalifətin təbliğati cəhdləri xüsusilə 2019-cu ilin əvvəllərindən daha da genişlənib. Əsasən "Osmanqızı" və "Azərbaycan saatı" youtube kanallarında AXCP sədri Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu və başqaları məsələnin mahiyyətini təhrif etməklə hakimiyyətə qarşı "siyasi yürüş" təşkil edirlər. Bununla da siyasi dividend qazanmağa çalışan radikal müxalifət əslində problemin əhalinin sosial rifahı deyil, şəxsi siyasi maraqların təmin etməyə çalışırlar. Əgər belə olmasaydı, özlərini cəmiyyətə "ekspert" və "siyasi xadim" kimi sırıyanlar ilk olaraq uşaq pulunun verilməsinin səbəbləri, sosial şəraiti və zərurəti haqqında izahat verərdilər.

Ümumiyyətlə, bir qayda olaraq uşaq pulları inkişaf etmiş ölkələrdə yüksək məbləğdə verilir və əhalinin azalmasının qarşını almaq üçün görülən stimullaşdırıcı tədbir xarakteri daşıyır. Həmçinin, sosialist düşərgəsinə daxil olan keçmiş ölkələrin bəzisində isə hələ də aztəminatlı çoxuşaqlı ailələrə sosial yardım məqsədilə verilir. Lakin Azərbaycanda bu yaxınlarda 10 milyonuncu sakin dünyaya gəldi, ölkəmiz yalnız Cənubi Qafqazda deyil, bütövlükdə postsovet ölkələri arasında ən yaxşı demoqrafik göstəricilərə malikdir, əhali artımı, eləcə də əhalinin demoqrafik balansında uşaq, yeniyetmə və gənclərin faizləri yüksəkdir. Son 15 ildə əhali artımı 1.7 milyon nəfər təşkil edib. Göründüyü kimi,əhali artımını əlavə təşviq edilməsi kimi zərurət yoxdur.



Digər tərəfdən Azərbaycanda sosial siyasətin əsasında insan amili, azərbaycanlı ailəsinin rifahı amili durur. Sosial müavinətlərin verilərkən ailədə uşaqların olması, uşaqların sayı da diqqətdə saxlanılır və ünvanlılıq prinsipi əsas götürülür. Həmçinin, bu il ərzində dövlət minimum əmək haqqının və minimum pensiya məbləğinin kəskin artımına gedib. Bu isə dövlətin əhalinin maddi rifahının yüksəlməsi üçün daha böyük sosial yük götürdüyünü və məsələləri köklü şəkildə həll etmək niyyətini nümayiş etdirir. Qeyd edək ki, iyun ayının 18-də Prezident İlham Əliyev imzaladığı 17 sərəncamla əhalinin müdafiəsini gücləndirmək məqsədilə növbəti sosial paketi təsdiq etdi.



Beləliklə, sosial sahədə ilin əvvəlində atılan inqilabi addımların yeni mərhələsinə start verildi. Sərəncamlarla minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata çatdırılır, dövlət qulluqçularının aylıq vəzifə maaşları 50 faiz artırılır, hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqları 40 faiz artırılır, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılır, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşları orta hesabla 40 faiz artırılır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi artan büdcə imkanları əhalinin sosial rifahının yüksəldilməsi üçün istifadə olunur. Eyni zamanda insan kapitalının inkişaf etdirilməsi məqsədilə əlavə resurslar təhsilə, elmə yönəldilir. Azərbaycanda ötən illər ərzində insan resurslarının, insan kapitalının inkişafı naminə ciddi layihə və proqramlar həyata keçirilib, minlərlə gənc dövlət hesabına xaricdə bakalavr, magistr və doktorant təhsili alıblar. Eləcə də Azərbaycanın bütün yaşayış məntəqələri, bölgələri müasir uşaq bağçaları, məktəblər, xəstəxanalarla təmin edilib və təmin edilməkdədir. Ölkənin bütün yaşayış məntəqələri içməli su ilə, elektrik enerji fasiləsiz verilməsi təmin edilməkdədir. Ölkənin avtomobil yolları şəbəkəsi başdan yenilənib və əhatə dairəsi də genişlənib. Ölkənin tam qazlaşdırılması isə başa çatmaq üzrədir. Ümumiyyətlə, sosial rifahın yüksəlməsi, məşğulluq səviyyəsinin artırılması üçün çoxsaylı proqramlar həyata keçirilib və hazırda bu istiqamətdə tədbirlər davam etdirilir, yeni proqramlar, yeni yanaşmalar tətbiq edilir. Ona görə də, təkliflər verilərkən maliyyə yükü amili, bütövlükdə ailələrin sosial müdafiəsində hansı proqramların daha çox fayda verdiyi önə çıxarıla bilər.

Nəzərə almaq lazımdır ki, həm müavinət, həm ünvanlı yardım, həm də ailələrə dəstək proqramları paralel icra oluna bilməz. Həmçinin, uşaq pulu yuxarı məbləğdə təyin olunacaqsa, ailə avtomatik ünvanlı sosial yardım almaq imkanını itirir. Yəni, ailənin gəlirləri artacaq və onlara ünvanlı sosial yardım tətbiq olunmayacaq. Eləcə də, müavinətlərin ailənin gəlirlərindən asılı olmayaraq, hər kəsə verilməsi təklifi isə sosial ədalət prinsipinə ziddir. Çünki, gəlirləri yüksək olan ailələrə dövlət tərəfindən 50 və ya 100 manatın verilib-verilməməsi onlar üçün hiss olunacaq dərəcədə təsirli olmayacaq. Halbuki həmin vəsaitin aztəminatlı ailələrin təminatına yönəldilməsi daha məqsədyönlüdür.

Göründüyü kimi, ötən əsrin 70-80-ci illərdə ailələrin 11 manat uşaq pulu ilə dolanması, daha doğrusu, dolanışıq xatirinə ailə üzvlərinin sayın fiziki artımına gedilməsi haqda bəzi müxalifətçilərin sovet nostalgiyası ilə çıxış etməsi ciddilikdən uzaqdır. Uşaq pulu mövzusu ətrafında müzakirələr manipulyativdir. Ona görə də, bu barədə danışmazdan öncə ciddi şəkildə araşdırmalar aparılmalıdır. Əgər mövzu ilə bağlı müzakirələr aparanlar sözün həqiqi mənasında xalqı düşünürlərsə, o zaman ictimai rəyi çaşdıracaq, insanlarda mənfi tonda düşüncə yaradacaq çağırışlara, yalanlara yol verməsinlər.

## İsa Həbibbəyli: Təhsil işçilərinin sosial rifahının yaxşılaşdırılması dövlət siyasətinin əsas prioritetlərindəndir

"İyunun 18-də dövlət başçısının müvafiq sərəncamları ilə minimum əməkhaqqının və müxtəlif kateqoriyalar üzrə əməkhaqlarının sentyabrın 1-dən artırılması Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin parlaq nümunəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin bir çox dövlət qurumlarında, eyni zamanda, elm və təhsil müəssisələrində çalışan əməkdaşların maaşlarının artırılması ilə bağlı imzaladığı sərəncamlar aparılan uğurlu iqtisadi siyasətin nəticəsidir". Bu fikirləri Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli deyib.



İ.Həbibbəyli bildirib ki, aparılan iqtisadi islahatlar və əldə olunan nailiyyətlər sayəsində, bu gün ölkənin bütün sahələrində çalışanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində addımlar atılır.

"Cənab Prezidentin "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında", "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında", "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" sərəncamları elm və təhsil sahəsində çalışanların üzərinə böyük məsuliyyət qoyur. Biz elm və təhsil işçiləri bundan sonra daha da səylə çalışacağıq ki, Azərbaycan elminin inkişafına öz töhfələrimizi verək"-deyə, komitə sədri vurğulayıb.

## Hadi Rəcəbli: Minimum əmək haqqının, minimum pensiyaların artması büdcədə sosial yönümlülüyü artıracaq

***"Parlamentin payız sessiyasında gələn ilin dövlət büdcəsini, yaşayış minimumu rəqəmini, eləcə də, sosial büdcəni təsdiq edəcəyik. Minimum əmək haqqının, minimum pensiyaların artması büdcədə sosial yönümlülüyü artıracaq". Bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib.***



H.Rəcəbli bildirib ki, əvvəllər büdcənin 27-28 %-i sosial məqsədlərə gedirdisə, 2020-ci ildə bu rəqəm 35-37 civarında olacaq. "Düşünürəm ki, büdcənin böyük hissəsi 35-37%-i sosial müdafiə və bu istiqamətli məsələlərə yönələcək. Minimim əmək haqqı 900 min nəfəri əhatə edir. 700.000 nəfərin isə minimum pensiya həddi kəskin surətdə yuksələcək. Bizim hesablamalarımız göstərir ki, bu məsələlrə üçün məbləğ 5 milyarda qədər ola bilər. Əvvəlki illərdə xərclər qrafasında bizim məsrəfimiz nə qədər idisə, bundan sonra 5 milyar manata qədər olacaq. Bu da büdcənin əsasən sosial yönümlü olmasından xəbər verir"-deyə, komitə sədri vurğulayıb.

***Azərbaycanda sosial şəbəkələr ictimai münasibətlərin, insanlararası ünsiyyətin tənzimlənməsində oynadığı rol qədər siyasi mühitə də öz təsirini göstərməkdədir. Bəzi hallarda insanlar sosial şəbəkələr üzərindən əldə olunan informasiyaları yoxlamadan qəbul edir, ona inanırlar. Məhz bu səbəbdən də sosial şəbəkələrdə yalan, şər, böhtan üzərindən təbliğat qurub siyasi və digər xarakterli maraqlarını təmin etməyə çalışanlar da var. Onlardan birincisi elə AXCP sədri Əli Kərimlidir.***

# Siyasi maxinator

## *...yaxud yalanları ilə özünü "dəfn" edən Əli Kərimli*



**Vüqar Rəhimzadə, "İki sahil" qəzetinin baş redaktoru**

Doğrudur, Əli Kərimli formal olaraq AXCP sədri olsa da, onu bu gün daha çox bloqqer kimi tanıyırlar. Canbir qəlbdə olduğu "Osmanqızı" və "Azərbaycan saatı" kanallarından başqa çox nadir hallarda digər "Youtube" tv-lərə müsahibə verən Əli Kərimlinin əsas niyyəti yalnız və yalnız ictimai rəyi çaşdırmaq, siyasi dividend əldə etmək və əlbəttə ki, qrant təşkilatlarının diqqətini çəkməkdir. Ə.Kərimli bu günlərdə "Azərbaycan saatı" "Youtube" kanalının canlı yayımında yenidən həyatının ən böyük yalanını danışdı. Kərimlinin guya ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra 7 rayon işğal olunub fikri onu nəinki ifşa, hətta "dəfn" etdi, deyərdim. Çünki çox da uzaq olmayan bir tarixi bu dərəcə həyasızlıqla saxtalaşdırmaq cəhdini həmin dövrün canlı şahidləri heç bir halda sakit qarşılaya bilməzlər. Necə ki, Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov özünün "Facebook" səhifəsində paylaşdığı statusla Əli Kərimlini ifşa etdi.

Əli Həsənov məlum statusu ilə həmin dövrün reallıqlarına bir daha işıq salmaqla Kərimlinin yalan danışmaq və böhtan atmaq cəhdini növbəti dəfə yerindəcə iflasa uğratdı. Əli Həsənovun statusunda deyilir: "AXC-Müsavat hakimiyyəti ölkəni bərbad vəziyyətə salmışdı və bu, orduda daha acınacaqlı hal almışdı. Ordunun maddi-texniki təminatı, hərbi arsenalı yox idi, ordunun döyüş ruhunu saxlamaq üçün arxa cəbhədə milli birlik də təmin edilməmişdi. Ön cəbhədə döyüşlərin getdiyi vaxt arxa cəbhədə vəzifə davası aparılır, siyasi qruplaşmalar arasında açıq silahlı mübarizə gedirdi. Silahlı qüvvələr daxilindəki müxtəlif birləşmələr də ayrı-ayrı siyasi və maraq qruplarının tabeliyində idi. Paytaxtda vəzifə davasına çıxan siyasi qruplar daha çox pay qoparmaq üçün həmin silahlı birləşmələri cəbhə xəttindən geri çəkərək Bakıya gətirir, siyasi mübarizədə, vəzifə bölgüsündə təzyiq aləti kimi istifadə edirdilər.

Cəbhədə döyüşlərin getdiyi ərəfədə Surət Hüseynovun, İsgəndər Həmidovun, Rəhim Qazıyevin, Rövşən Cavadovun və digərlərinin silahlı dəstələrinin Bakı küçələrində avtomatlarla gəzdiyini, insanlara divan tutduğunu, vəzifə bölgüsündə daha çox pay qoparmaq üçün paytaxtı hərbi poliqona çevirdiklərini xalq unutmayıb.

Silahlı birləşmələr Bakıda vəzifə davasında iştirak etdiyi vaxt isə cəbhə müdafiəsiz qalmışdı. Nəticədə erməni işğalçıları Dağlıq Qarabağla birgə ətraf yeddi rayonu da zəbt etməyə nail oldular. Tarixi saxtalaşdırmağa çalışanlar cavab versinlər: Belə bir vəziyyətdə Heydər Əliyev hansı ordu, hansı güc strukturu və hansı səlahiyyətlə ərazi itkilərinin qarşısını ala bilərdi?

Parlamentin sədri kimi heç bir güc strukturuna çıxışı olmayan və bu səbəbdən işğalın qarşısını ala bilməyən Heydər Əliyev Azərbaycanı etnik və regional zəmində parçalanma təhlükəsindən, vətəndaş müharibəsi və xaosdan xilas edə bildi.

Bakıya qayıtdıqdan sonra cəmi 6 ay ərzində Heydər Əliyevin Azərbaycanın xilası üçün nələr etdiyini xalqımız unutmayıb".

Əli Kərimli, göründüyü kimi, bu statusda sənin və sənin kimi düşünən əqidədaşlarının əsl siması (daha doğrusu, simasızlığı) tam çılpaqlığı ilə ortaya qoyulub. Əslində, bütün bunları bilə-bilə sən yenə də yalan danışır, böhtan tirajlayırsan. Sənin oxuduğun moizələrə qulaq asan və 1992-1993-cü illərdən bixəbər olan insanlara elə gələ bilər ki, həmin dövr ölkəmizdə ən uğurlu və xoşbəxt illər olub. Guya ölkədə bütün sahələrdə inkişaf, güclü iqtisadiyyat, yüksək rifah və s. təmin olunubmuş. Lakin sual olunur ki, əgər belə idisə, niyə AXC hakimiyyəti cəmi 1 il davam gətirə bildi? Niyə Qarabağ ermənilərdən təmizlənmədi, siyasi-iqtisadi islahatlar aparılmadı, ölkədə vətəndaş müharibəsi və separatizm meyilləri baş qaldırdı? Sizin hakimiyyətiniz dövründə xalqa xilaskar kimi təqdim edib "milli qəhrəman" adı verdiyiniz Surət Hüseynov kimi bir avantüristin rəhbərlik etdiyi silahlı dəstələrin Qarabağ, Gəncəbasar zonaları da daxil olmaqla ölkənin böyük bir hissəsində, necə deyərlər, "at oynatmasına", cənub bölgəsində sizlərin qoynunuzda bəsləyib, yetişdirdiyiniz separatçı Əlikram Hümbətovun qondarma "Talış-Muğam respublikası" elan etməsinə, şimalda siyasi qruplaşmaların ölkəni parçalamaq cəhdlərinə rəvac verməklə respublikada faktiki olaraq vətəndaş müharibəsini alovlandırdığınızı nə tez unutdun?! Bax, ölkəni bu labirintdən bu gün sənin məsuliyyət hissini, vicdanını itirərək alçaqcasına "7 rayonu düşmənə təhvil verməkdə" ittiham etdiyin ulu öndər Heydər Əliyev xilas etdi! Ümummilli Lider təkcə Azərbaycanı məhv olmaqdan xilas etmədi, həm də respublikanı bu vəziyyətə saldığınıza görə xalqın qəzəbindən qorxub küncdə-bucaqda gizlənmiş sizlərin xilaskarı oldu!

Sənin timsalında bu gün özünü cəmiyyətə siyasətçi kimi sırımağa çalışan bir avantüristin yaxın tariximizdə baş vermiş bu olayları unudub Azərbaycan xalqının xilaskarının ünvanına hədyanlar söyləməsi ən azı vicdansızlıq və riyakarlıqdır!

İndi isə sənin başdan-ayağa yalan və faktların təhrif olunması üzərində qurulan moizəndən fərqli olaraq birillik hakimiyyətiniz dövründə ölkənin real məınzərəsini bir daha sənə xatırlastmaq istəyirəm. Əslində isə həmin 1 il ərzində AXC-Müsavat cütlüyünün ölkəni hansı vəziyyətə saldığı hər kəsə məlumdur. Heç kəsə sirr deyil ki, Sovet İttifaqının süqutundan başlayaraq Azərbaycanda tüğyan edən hərc-mərclik ərazilərimizin bir hissəsini erməni işğalı ilə üzüzə qoymuş, digər hissəsində isə bu işğal yerli məmur özbaşınalığı ilə əvəzlənmişdi ki, nəticədə xaos, anarxiya yaranmış, ölkə hərtərəfli böhrana qərq olmuşdu. Bu zaman hakimiyyəti əldə saxlamaq, eyni zamanda, Azərbaycana rəhbərlik etmək uğrunda mübarizə aparan diletant siyasətçilər ölkəni düşmənə peşkəş etməyə hazır olmaqla kifayətlənmir, əllərində olan bütün imkanlardan, o cümlədən qanunsuz silahlı birləşmələrdən maksimum səviyyədə yararlanmaqla dövlət mülkiyyətini talayırdılar. Bu cür dağıdıcı siyasət AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə daha da dərinləşmiş, Azərbaycan iqtisadiyyatı defolt həddinə çatmışdı.

Belə ki, 1991-ci ildən başlayaraq ölkə iqtisadiyyatında ümumi daxili məhsul istehsalı hər il orta hesabla 16,5 faiz azalmış, istehsal potensialının 2/3 hissəsi sıradan çıxmışdı. Ümumi xarakterizə etsək, bu dövrdə ölkə iqtisadiyyatının həcmi 1989-cu ilin müvafiq göstəricisinin 20 faizini təşkil edirdi. 1992-ci ildə inflyasiya səviyyəsi əvvəlki ilə nisbətən 4,9 dəfə artaraq 1012,3 faiz təşkil etmişdi ki, nəticədə sonrakı illərdə bu rəqəm özünün ən yüksək həddinə - 1763,5 faizə çatmışdı. Bu dövrdə ölkə iqtisadiyyatına demək olar ki, xarici sərmayə qoyulmamışdı. Məhz bu səbəblərə görə işsizliyin səviyyəsi xeyli artmışdı. 1991-ci ildən başlayaraq 4 il ərzində əməkhaqqı 5,7 dəfə azalmışdı.

Həmin dövrdə nə ordudan, nə də hərbi uğurlardan danışmaq mümkün deyildi. Ölkədə ordu əvəzinə çoxsaylı silahlı qruplaşmalar mövcud idi. Özünü lider hesab edən hər kəs bir batalyon saxlayırdı. Cəbhədəki uğursuzluqlar da öz yerində. Həmin dövrdə orduda vahid komandanlıqdan, silahlı qruplar arasında rabitədən isə söhbət belə gedə bilməzdi. Bunun da nəticəsi olaraq erməni hərbi birləşmələrinin torpaqlarımızı işğalının qarşısını almaq mümkün olmurdu. Dağlıq Qarabağla yanaşı, Kəlbəcər kimi strateji əhəmiyyətli rayon AXC-Müsavat hakimiyyətinin məsuliyyətsizliyi və günahı ucbatından əldən verildi. Cəbhədə, orduda olan belə bir acınacaqlı şəraiti aradan qaldırmaq, ölkəni düşdüyü acınacaqlı situasiyadan çıxarmaq əvəzinə paytaxtda hakimiyyətdaxili mübarizə günü-gündən qızışırdı. Bu mübarizəyə cəbhədə dislokasiya olunmuş silahlı birləşmələrin cəlb edilməsi isə işğalçı ordunun əl-qolunu açırdı. Nəticədə AXC hakimiyyətinin hərbi sahədəki "nailiyyətləri" ona gətirib çıxardı ki, ermənilər torpaqlarımızın 20 faizini işğal etdilər.

Hakimiyyətdə olan qüvvənin apardığı siyasət nəticəsində ölkə iqtisadiyyatı çökdürülür, büdcə talanırdı. Bütün sahələrdə olduğu kimi, iqtisadi sferada da korrupsiya və rüşvətxorluq baş alıb gedirdi. Milyonlarla manat vəsaitin toplandığı Ləl-Cəvahirat Fondunun vəsaitləri belə mənimsənilmişdi. İş o yerə çatmışdı ki, Əbülfəz Elçibəy öz məmurlarına üzünü tutub "Rüşvəti alanda elə edin ki, kommunistlərin atasına rəhmət oxutdurmayın" demişdi.

Ölkənin siyasi sistemində də vəziyyət acınacaqlı idi. AXC-Müsavat cütlüyü hakimiyyəti demokratik şüarlarla hakimiyyətə gəlsə də, tezliklə avtoritar xarakterini ortaya qoydu. Müxalif sözə, tənqidə dözümsüzlük nümayiş etdirdi. Ölkədə azad sözün, pluralism, mətbuatın boğulmasına başlandı. Həmin dövrdə jurnalistlərin yüksək vəzifəli məmurlar tərəfindən döyülməsi, onların həbs edilməsi, müxalifət nümayəndələrinin işinə maneçilik törədilməsi, onların təhqirə məruz qalmaları, qərargahlarının dağıdılması adi hala çevrilmişdi. Söz, mətbuat azadlığının boğulması müstəqil qəzetlərə və jurnalistlərə edilən təzyiqlərdə özünü göstərirdi.

Bir sözlə, birillik hakimiyyəti dövründə AXC-Müsavat cütlüyü heç bir ciddi nailiyyəti ilə yadda qalmamış, əksinə, ölkədə bütün sferalarda geriləmə, tənəzzül prosesləri güclənmişdi.

Bütün bunlar da Ə.Kərimli üçün daha bir tarix dərsi olsun. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun sözləri ilə desək, "Əli Kərimli, tarix məhz onu saxtalaşdırmaq istədiyiniz üçün sizlərə əsl yerinizi göstərdi. Siyasi bioqrafiyanız çoxdan bitib, siz indi adi bloqqer kimi maraq doğurursunuz..."

# COJEP beynəlxalq təşkilatının nümayəndələri Mətbuat Şurasında olublar



**Sentyabrın 5-də COJEP (Council of Youth Multicultural) beynəlxalq təşkilatının rəhbəri Əli Gedikoğlunun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Mətbuat Şurasında olub. Mətbuat Şurasının məlumatında deyilir ki, Şuranın sədri, Milli Məclisin deputatı Əflatun Amaşov qonaqlara rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərindən, beynəlxalq təşkilatlarla əlaqələrindən danışıb.**

Əli Gedikoğlu bildirib ki, 2007-ci ildən beynəlxalq qurumlarda təmsil olunan COJEP-in mərkəzi Strasburqda yerləşir. Təşkilat Avropanın 14 ölkəsində fəaliyyət göstərir, irqçiliyə, ayrı-seçkiliyə, islamofobiyaya qarşı mübarizə, demokratikləşmə, bərabər hüquqlar istiqamətində çalışır. Görüşdə əməkdaşlığın qurulması yolları ətrafında fikir mübadiləsi aparılıb.

# “Ölkəmizdə aparılan islahatlar bütövlükdə iqtisadiyyatımızı dinamik, texnoloji və innovativ edəcək”

***- Tahir müəllim, məlum olduğu kimi sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı 250 manata çatdırılıb. Sizcə, bu artım əhalinin rifah halına necə təsir göstərəcək?***

- Minimum əməkhaqqının səviyyəsinin çox ciddi iqtisadi və sosial funksiyası var. Minimum əməkhaqqının artırılması cəmiyyətdə davamlı olaraq maddi rifah halının yaxşılaşmasına, əməyə verilən qiymətin artmasına, əmək məhsuldarlığının yüksəlməsinə, işçilərin ixtisaslarına olan tələbin artmasına səbəb olur. Azərbaycanda 2019-cu ildə minimum əməkhaqqının 130 manatdan 250 manata qədər, yəni təqribən 2 dəfə artması çox ciddi iqtisadi və sosial hədəflərdən xəbər verir.

İlk öncə onu deyim ki, minimum əməkhaqqının bu dərəcədə kəskin artımı üçün iqtisadi potensial olmalıdır ki, bu artımı maliyyəşdirmək mümkün olsun. Digər tərəfdən, tənzimləmə mexanizmləri təkmil olmalıdır ki, artım kəskin inflyasiyaya səbəb olmasın. Prezident İlham Əliyev tərəfindən aparılan islahalatlar nəticəsində iqtisadiyyatın şəffaflaşması bu artımı artan büdcə gəlirləri hesabına maliyyəşdirməklə etibarlı maliyyə mənbəyi ilə təmin etdi. Digər tərəfdən, inflyasiyanın 2.5% olması artımın real dəyərinin qorunub saxlanmasının göstəricisidir. 2019-cu ilin 6 ayının iqtisadi yekunları, əhalinin gəlirlərini 6.6% artması bu prosesin davamlı olacağını deməyə əsas verir. Eyni zamanda, minimum əməkhaqqının artması orta aylıq əməkhaqqının da artmasına təsir görtərir ki, bu proses artıq başlayıb. Düşünürəm ki, 2019-cu ilin yekun göztəriciləri əhalinin real gəlirlərinin daha çox artmasını göstərəcək.



Milli Məclisin deputatı Tahir Mirkişilinin yap.org.az-a müsahibəsi

***- Ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu prosesin hazırki səviyyəsi haqqında nə deyə bilərsiniz?***

- 2019-cu ilin 6 ayının iqtisadi göstəriciləri qeyri-neft sektorunda əhəmiyyətli kəmiyyət və keyfiyyət göstəricilərinin əldə edildiyini deməyə əsas verir. Həcm cəhətdən qeyri-neft sektorunun ümumi artımının Ümumi Daxili Məhsulun artımını üstələməsi, qeyri-neft sənayesinin 15.7%, kənd təsərrüfatı istehsalının isə rekord 13% artması bu sahələrdə görülən işlərin mühüm nəticələridir. Qeyri-neft ixracımızın da 15% artması bu prosesin kompleks hal aldığı və həm də miqyas effektindən qaynaqlandığı anlamına gəlir.

Digər tərəfdən, vergi yığımında qeyri-neft sektorunu payının 70%-ə çatması bu sektorun iqtisadi fəaliyyətdə aparıcı rol oynaması deməkdir. Gəlirlərin bölgüsünün əsas güzgüsü olan vergi yığma sistemində qeyri-neft sektorunun aparıcı rolu bu sektorun həm də sosial sahələrin inkişafında artıq həlledici rolundan xəbər verir. Digər tərəfdən, ölkə iqtisadiyyatına investisiyaların da əsas hissəsinin qeyri-neft sektoruna qoyulması, insan kapitalının inkişafı və bu kapitalın da əsasən qeyri-neft sektorunun inkişafına yönəldilməsi bu sahənin inkişafına davamlı və sürətli etməkdədir.

***- Qarşıda duran vəzifələrdən biri də ölkəmizin ixrac potensialının artırılmasıdır. Azərbaycan məhsullarının mövcud ixrac səviyyəsi və daha hansı sahələrdə ixrac potensialının artırılmasının mümkünlüyü haqqında fikirlərinizi bilmək istərdik...***

- Azərbaycanın ixrac potensialının artırılması və ixracın reallaşması üçün müxtəlif tədbirlər həyata keçirilir. Bir tərəfdən ixrac potensialının artırılması üçün sənaye istehsalı artırılır, sənaye parkları artıq öz bəhrəsini verir, kənd təsərrüfatı istehsalı artır, emal sənayesi inkişaf etdirilir. Turizm xidmətlərinin inkişafı üçün regionlarda əhəmiyyətli tədbirlər həyata keçirilir. Bütün bu layihələr ixrac potensialını artırır və ixracetmə üçün məhsul yaradır. Digər tərəfdən, yeni ixrac bazarları əldə etmək və ənənəvi bazarları genişləndirmək üçün həm dövlət tərəfindən, həm də sahibkarların özləri tərəfindən müxtəlif səylər və tədbirlər həyata keçirilir. Məhz bu tədbirlərin nəticəsində 2019-cu ilin 6 ayı ərzində qeyri-neft ixracımız 15% artmışdır.

Ancaq ixrac bazarlarının genişləndirilməsi həm də ciddi rəqabətlə üzləşmək deməkdir. Dövlətin əsas dəstək funksiyası sahibkarlar üçün xarici bazarlarda inzibati maneələrin aradan qaldırılmasına nail olmaq və onlar üçün bazara daxil olmanı asanlaşdırmaq və marketinq fəaliyyətinə dəstək verməkdir. Amma xarici bazarlarda rəqabət aparmaq ixraçatçıların əsas funksiyası olmalıdır. Bunun üçün isə daxili istehsalda texnologiyaların və innovasiyaların tətbiqini genişləndirmək, əmək məhsuldarlığını artırmaq və pro aktiv marketinq fəaliyyəti aparmaq lazımdır. Düşünürəm ki, ölkəmizdə aparılan islahatlar bütövlükdə iqtisadiyyatımızı dinamik, texnoloji və innovativ edəcəkdir.

# Anar Kərimov: “İki sosial paketin birlikdə əhatə dairəsi əhalinin 40 faizini təşkil edir”



***Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən ikinci böyük sosial tədbirlər paketi həyata keçirilməyə başlayır. Həmin paketdə hər bir kateqoriya üzrə əməkhaqqının artırılması nəzərdə tutulur.***

AZƏRTAC xəbər verir ki, bu barədə məlumat verən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov deyib: “Sentyabrın 1-dən Azərbaycanda minimum əməkhaqqı 250 manat oldu. Bu, əhalinin gəlirlərinin gücləndirilməsi baxımından çox vacib və əhəmiyyətli bir addımdır. Məlum olduğu kimi, bu ilin əvvəlində minimum əməkhaqqı 130 manat idi. Bundan sonra birinci islahat paketi çərçivəsində həmin məbləğ 180 manata, sentyabrın 1-dən isə 250 manata çatdırıldı. Bu, minimum əməkhaqqının orta yaşayış minimumunu 40 faiz üstələməsi deməkdir. Əgər birinci islahat paketi nəticəsində minimum əməkhaqqı təqribən 600 min nəfəri əhatə etmişdirsə, ikinci islahat paketi nəticəsində 950 min nəfər əhatə olunur. Onun 600 min nəfəri dövlət, 350 min nəfəri özəl sektorda çalışır. Artımların miqyasını təsəvvür etmək üçün bəzi rəqəmləri xatırlatmağa ehtiyac var. Birinci islahat paketi nəticəsində muzdla çalışanların 40 faizinin əməkhaqqında artım edilmişdi, son islahat paketi onların 63 faizini əhatə edəcək. Ümumilikdə iki artım nəticəsində Azərbaycanda minimum əməkhaqqı 93 faiz artıb. Bu, MDB məkanında minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə ikinci göstəricidir. 2018-cu ildə ölkəmizdə orta əməkhaqqı təxminən 540 manat idisə, son artım nəticəsində həmin rəqəm 625 manata yaxın olacaq.

İkinci sosial paketin tətbiqi özəl sektorda da işçi qüvvəsinin cəlb olunması üçün əlavə stimul yaradır. Son altı ayın statistikasına nəzər yetirəndə bu sahədə müsbət tendensiyanı görmək mümkündür. Məsələn, ilk növbədə əmək müqavilələrinin sayı təqribən 7 faiz artıb. Bəzən minimum əməkhaqqının artımının qeyri-məşğulluğun artımına səbəb olduğunu düşünürlər, lakin rəqəmlər bunun əksini göstərir. Digər tərəfdən əməkhaqqı fondunda 18 faiz artım yaranıb. Bu, özəl sektorda 23 faiz artım deməkdir. Bu, gələcəksə sosial sığortaların yığımına da müsbət təsir göstərir, çünki bəzən sosial islahatlara xərclənən vəsaitin büdcəyə əlavə yük olduğunu düşünürlər. Lakin biz sosial islahatlara sərf olunan vəsaitin yenidən büdcəyə qayıdacağını görəcəyik və bu, islahatların növbəti mərhələlərini də uğurla aparmağa imkan verəcək.

Hər islahatın uğur meyarlarından biri onun ardıcıl şəkildə aparılmasıdır. Avropa İnkişaf və Əməkdaşlıq Təşkilatının son hesabatlarına görə, sosial sahədə ardıcıl şəkildə islahat aparmağa 40 dövlət arasında yalnız Polşa, Çexiya və Finlandiya kimi ölkələr nail ola bilib. Azərbaycanın da həmin sırada olması qürurverici haldır. Əgər sosial sahədə həyata keçirilən islahatlara nəzər yetirsək, aydın olar ki, ilin əvvəlində aparılan islahatlar daha çox pensiya, müavinət və təqaüdlərin artımına yönəldildi və 3 milyon nəfəri, başqa sözlə desək, ölkə əhalisinin 30 faizini əhatə etdi. İki sosial paketin birlikdə əhatə dairəsi isə əhalinin 40 faizini təşkil edir. Onu da qeyd edim ki, sosial sahədə aparılan bu islahatların iqtisadi inkişafa mənfi təsir göstərəcəyi, inflyasiyaya təkan verəcəyi barədə fikirlər mövcud idi. Lakin statistika göstərir ki, son altı ayda inflyasiya təqribən 2-3 faiz civarındadır. Ölkəmizdə ümumi inkişaf meyarlarına baxsaq, onları inflyasiya və digər tendensiyalarla müqayisə edəndə 2019-cu ilin uğurlu il olduğunu görərik”.

Pensiyaların artımı barədə danışan nazir müavini deyib: “Əgər pensiyalar martın 1-dən 160 manata çatdırılmışdırsa, oktyabrın 1-dən həmin məbləğ 200 manata qaldırılacaq. Birinci islahat paketi çərçivəsində təqribən 230 min, ikinci islahat paketi 660 min pensiyaçını əhatə edəcək. Bununla yanaşı müavinət və təqaüdləri də nəzərə alsaq, onda həyata keçirilən islahatlar 300 min əlili, 500 min qaçqını, 100 min tələbəni əhatə edəcək.

Ölkəmizdə əməkhaqqı ödənişi vahid tarif cədvəli və vəzifə maaşları üzrə aparılır. Vahid tarif cədvəlinin 19 dərəcəsi var. Minimum əməkhaqqının artırılması bütün 19 dərəcə üzrə öz təsirini göstərəcək. Bəzi tarif cədvəlləri üzrə artım 70 manat, bəzi cədvəllərdə 100 manat olacağı gözlənilir. Əgər minimum əməkhaqqı 950 min nəfəri əhatə edirsə, xüsusi rütbəlilər və dövlət qulluğunun müxtəlif növləri üzrə çalışanları 400 min nəfər olduğunu nəzərə alsaq, onda 1milyon 350 min nəfərin əməkhaqqı artımından söhbət gedir.

Minimum əməkhaqqının artırılması təxminən 800 milyon manata başa gələcək, müxtəlif dövlət qulluqçularının əməkhaqqının qaldırılması isə 780 min manata yaxın maliyyə vəsaiti tələb edəcək. Bu, ölkəmizin iqtisadi inkişafının uğurlarının bariz nəticəsi və onun sosial islahatların ardıcıl və davamlı aparılmasına ayırdığı diqqətin, eləcə də vətəndaşların rifah halına göstərdiyi qayğının danılmaz ifadəsidir”.

## Təhsil Nazirliyi: “Gürcüstana 20 min 622 ədəd dərslik və metodik vəsait göndərilib”

Sentyabrın 5-də Təhsil Nazirliyi tərəfindən Gürcüstanın Azərbaycan dilində tədris aparılan məktəblərinə 2019-2020-cu tədris ili üçün 21 adda 20 min 622 ədəd dərslik və metodik vəsait göndərilib. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, qeyd edilən dərs vəsaitləri bu qurumun və Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşlarının müşayiətilə həmin ölkənin Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə təhvil verilib. Son 5 ildə Təhsil Nazirliyi tərəfindən Gürcüstanın Azərbaycan dilində tədris aparılan məktəblərinə 81 min 427 ədəd dərslik və metodik vəsait göndərilib.

# Tamaşaçı üçün estetik zövq mənbəyinə çevrilən aktyor - Siyavuş Aslan

## *Xalq Artisti Siyavuş Aslanın anadan olmasından 84 il ötür*

***Onun milli teatr və kino sənətinin inkişafına dəyərli töhfələri, çoxsaylı tamaşalarda və bədii filmlərdə öz improvizə məharəti sayəsində ustalıqla xarakter səviyyəsinə qaldırdığı obrazları incə yumoru və dərin psixoloji yozumu ilə səciyyələnib. Əvəzolunmaz sənətkarın təkrarolunmaz fərdi ifadə üslubu və manerasında teatr mədəniyyətimizin yumor ənənələri bütün yaradıcılığı boyu bədii-estetik prinsiplərə uyğun, novatorcasına davam etdirilib. O, yaratdığı obrazlarla təkcə tamaşaçını güldürməyib, eyni zamanda, onu düşündürməyi bacarıb. Xalq Artisti, unudulmaz sənətkar Siyavuş Aslan yaradıcılığı vasitəsilə cəmiyyətin diqqət mərkəzində olan problemləri bütün dərinlikləri ilə tamaşaçının yaddaşında həkk etdirə bilib.***



Müasir Azərbaycan mədəniyyətində özünəməxsus yer tutan görkəmli aktyorun zəngin yaradıcılıq axtarışları ilə milli teatr və kino sənətinin inkişafına dəyərli töhfələr verib.

AZƏRTAC xəbər verir ki, sentyabrın 5-də Azərbaycanın görkəmli teatr və kino aktyoru, Xalq artisti Siyavuş Aslanın anadan olmasının 84-cü ili tamam olur.

Azərbaycan realist aktyor məktəbinin görkəmli nümayəndələrindən olan Səyavuş Aslan 1935-ci il sentyabrın 5-də Bakıda dünyaya göz açıb. Aktyorluğa həvəskar kimi dram dərnəyindən başlayıb. O, 1963-1969-cu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda musiqili komediya aktyorluğu ixtisası üzrə ali təhsil alıb.

Əmək fəaliyyətinə 1957-1958-ci illərdə Azərbaycan Dövlət Estrada Birliyində başlayan Siyavuş Aslan 1958-1959-cu illərdə Quba Dövlət Dram Teatrında, 1959-1984-cü illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, 1984-1994-cü illərdə isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında aktyor kimi çalışıb. 1994-cü ildə o, Azərbaycan Dövlət Musiqili Komediya Teatrına bədii rəhbər təyin edilib. 1996-cı ildə Siyavuş Aslan yenidən Akademik Milli Dram Teatrına qayıdaraq ömrünün sonunadək taleyini bu sənət ocağı ilə bağlayıb. O, həmişə səhnədə öz ifa tərzinə xüsusi incəliklərlə yeni çalarlar əlavə edib, çıxışlarını teatrsevərlər və kinosevərlər üçün estetik zövq mənbəyinə çevirməyi bacarıb.

Teatr aktyorluğu sahəsində görkəmli sənətkar kimi tanınan Siyavuş Aslan həm də məşhur kino ustası olub. Onlarla filmdə müxtəlif xarakterli sadə insanların, müftəxorların, fırıldaqçıların obrazlarını kinolentin yaddaşında yaşadıb. Siyavuş Aslanın teatr və kino sənətinə həsr etdiyi mənalı yaradıcılıq yolu neçə-neçə gənc aktyor nəsli üçün əsl sənət məktəbidir.

Onun üçün oynaya bilməyəcəyi rol yox idi. O, "Hamlet", "Böyük Romul", "Ax, Paris, Paris", "Mənim sevimli dəlim", "Hicran" , "Poçt şöbəsində xəyal", "Varlı qadın", "Sevgililərin cəhənnəmdə vüsalı", "Bizim qəribə taleyimiz" tamaşalarında, "Ulduz", "Bəyin oğurlanması", "Yol əhvalatı" filmlərində, "Yaşıl eynəkli adam", "Qaynana əməliyyatı" və digər teletamaşalarda yaratdığı bir-birindən yaddaqalan obrazlar qalereyası ilə böyük tamaşaçı sevgisi qazana bilib. Sənətkar kimi o özünü dünya dramaturgiyasında, klassik dramaturgiyada sınağa çəkərək realizə edə bilib.

Azərbaycan teatrı və kino sənətinin inkişafında xüsusi xidmətlər göstərmiş Siyavuş Aslanın əməyi daim yüksək qiymətləndirilib. O, bir çox mükafat və fəxri adlar alıb, müstəqil Azərbaycan Respublikasının ali dövlət təltifləri olan "Şərəf", "Şöhrət" ordenlərinə və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülüb.

2013-cü ilin iyunun 27-də dünyasını dəyişən unudulmaz sənətkarımız Siyavuş Aslan yaratdığı parlaq obrazlar qalereyası ilə sənətsevərlərin qəlbində, o cümlədən teatrımızın, kinomuzun tarixində əbədi olaraq qalacaq.

# Musa Yaquba "Xalq şairi" fəxri adının vəsiqəsi təqdim edilib



***Prezident İlham Əliyevin 25 may 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə görkəmli şair, Yazıçılar Birliyinin üzvü Musa Yaqub "Xalq şairi" fəxri adına layiq görülüb. Sentyabrın 5-də Mədəniyyət naziri Əbülfəs Qarayev Xalq şairinə fəxri adın nişanını və vəsiqəsini təqdim edib.***

Nazir Musa Yaqubu təbrik edərək onun müasir Azərbaycan poeziyasında öz dəstxətti ilə seçilən şairlərdən olduğunu bildirib. Qeyd edib ki, zəngin yaradıcılıq yolu keçən şairin indiyədək çapdan çıxmış 10-dan çox kitabı oxucular tərəfindən maraqla qarşılanıb. Musa Yaqubun xalqımızın milli ruhundan, minillik adət-ənənələrindən qaynaqlanan poeziyası vətənpərvərlik duyğuları ilə zəngindir.

Əbülfəs Qarayev onu da diqqətə çatdırdı ki, Mədəniyyət Nazirliyinin dəstəyi ilə bu ilin sonunda şairin yeni kitabı işıq üzü görəcək.

"Xalq şairi" kimi yüksək fəxri ada layiq görüldüyünə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Musa Yaqub ölkə başçısının həmişə yaradıcı insanlara diqqət və qayğı göstərdiyini deyib. Qocaman şair Azərbaycan poeziyasının gələcəyindən nikbin olduğunu vurğulayıb. Qeyd edib ki, bu gün istedadlı gənc yazarlar böyük ənənələri olan Azərbaycan ədəbiyyatını yeni ideyalarla zənginləşdirirlər. Şair gənc qələm sahiblərinin ona olan münasibətindən də razılığını bildirib. Nazir Əbülfəs Qarayev sonda bir daha Musa Yaqubu fəxri ad münasibətilə təbrik etdi, ona möhkəm cansağlığı və yeni-yeni əsərlərlə oxucularını sevindirməsini arzulayıb.

# Melih Yevdayev: "Azərbaycan və İsrail xalqları arasında dostluq əlaqələri uzun əsrlər davam edəcək"



Biz əgər Azərbaycanda hökm sürən tolerantlıq və multikultural mühitə nəzər salsaq bugünkü görüşdə Azərbaycan həqiqətlərinin canlı təzahürünü seyr edə bilərik. Bu sözləri AZƏRTAC-a müsahibəsində Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev tanınmış yəhudi şairi Raxel Bluvşteynin Azərbaycan dilinə tərcümə olunmuş şeirlər toplusunun təqdimatı zamanı deyib.

"Azərbaycan öz müstəqilliyini yenidən bərpa edəndən sonra İsrail dövləti ilə iqtisadi və siyasi sahədə yüksək əlaqələr qurulub. Biz bunu hər an hiss edirik. Azərbaycan Prezidentinin yeritdiyi daxili və xarici siyasət bu ölkədə yaşayan azsaylı xalqların da mövqeyi ilə tam üst-üstə düşür. Ona görə də bu siyasət həm Azərbaycan xalqına, həm də burada yaşayan bütün xalqlara, eynilə onların hüquqlarının və mənafeyinin qorunmasına və ümumilikdə Azərbaycanda həyat tərzinin yüksəldilməsinə xidmət edir. Bugünkü görüş də elə siyasi əlaqələrin davamıdır. Ümumiyyətlə xalqlar arasında mədəni əlaqələr dostluq prinsipini daha da möhkəmlədir. Belə düşünürəm ki, Azərbaycan və İsrail xalqları arasında dostluq əlaqələri uzun əsrlər davam edəcək", -deyə M.Yevdayev bildirib.

# Ali təhsil müəssisələri üçün plan yerləri ildən-ilə artırılır



1992-2018-ci illər ərzində ali təhsil müəssisələri üzrə ən yüksək müsabiqə vəziyyəti 2008-ci ilə, ən aşağı müsabiqə vəziyyəti isə 2002-ci ilə təsadüf edir. Bu barədə məlumat 2018/2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları ilə bağlı DİM-in elmi-statistik hesabatında yer alıb.

Plan yerləri və abituriyent ərizələrinin dinamikasının müqayisəli təhlili göstərir ki, 1992-2018-ci illər ərzində ali təhsil müəssisələrinin qəbul planı 2.66 dəfə, abituriyent ərizələrinin sayı isə 2.06 dəfə artıb. İllər üzrə bu göstəricilərin dinamikası müxtəlif olub. Təqdim olunacaq abituriyent ərizələrinin sayının əvvəlcədən proqnozlaşdırılmasına baxmayaraq, qəbul planları tərtib edilərkən heç də həmişə abituriyentlərin gözlənilən sayı nəzərə alınmayıb. Ali təhsil müəssisələri üçün plan yerləri ən çox 2018-ci ildə, ən az 1993-cü ildə ayrılıb. Abituriyent ərizələrinin sayı isə ən az 1992-ci ildə, ən çox 2008-ci ildə olub.

Hesabatda bildirilir ki, ötən illər ərzində ən aşağı müsabiqə vəziyyəti 2002-ci ilə təsadüf edir. Həmin il məktəb məzunlarının sayı 2 dəfəyədək azaldığı halda, plan yerləri demək olar ki, əvvəlki ilin səviyyəsində saxlanılmışdı. Nəticədə müsabiqə vəziyyətinin aşağı olması qəbulun keyfiyyətinə də mənfi təsir göstərmiş, ixtisaslar üzrə keçid balları xeyli aşağı düşmüşdü.

# Ermənistanda növbəti hakimiyyət dəyişikliyi gözlənilir

***Ermənistanda yenidən Koçaryan-Paşinyan arasında qarşıdurmalar geniş xarakter almaqdadır. İşğalçı dövlətdə vəziyyətin gərginləşməsi yeni hakimiyyət dəyişikliyi ilə nəticələnə bilər. Bu halda, sual yaranır: əgər Ermənistanda yeni hakimiyyət dəyişikliyi baş verərsə, bu Dağlıq Qarabağ probleminin həlli məsələsinə necə təsir edə bilər? Söhbət etdiyimiz müsahiblərimiz, işğalçı Ermənistanda hakimiyyət dəyişikliyinin qaçılmaz olduğunu və əgər bu baş verərsə, Dağlıq Qarabağın işğaldan azad edilməsi üçün Azərbaycanın başqa çıxış yolu qalmayacağını bildirdilər.***

### Politoloq Elşən Manafov: "Ermənistanda hakimiyyət uğrunda mübarizə gərginləşəcək"

- Qarşıdurmanın yaranması Ermənistan Konstitusiya Məhkəməsinin Koçaryanla bağlı qəbul etdiyi qərardan irəli gəlir. Yəni Konstitusiya Məhkəməsinin bu qərarı, təbii ki, Paşinyan hakimiyyətinin imicinə ciddi bir zərbədir. Artıq iqtidar bəyan edib ki, Konstitusiya Məhkəməsinin tərkibində təmsil olunmuş hakimlər Koçaryan hakimiyyəti dönəmində məhkəmə üzvləri seçildiklərindən onların qəbul etdikləri bu qərar da daha çox korporativdir, konyekturdur və Ermənistanın mövcud qanunvericiliyinə ziddir. Bu qarşıdurma göstərir ki, əslində, Koçaryan hakimiyyətinin, yəni əslində, Qarabağ klanının



ölkənin məhkəmə hakimiyyətində, digər güc strukturlarında təmsilçiləri hələ də var. Bu faktın özü göstərir ki, Ermənistanda hakimiyyət uğrunda mübarizə, mahiyyət etibarı ilə, yeni bir mərhələyə daxil olmaqdadır. O ki qaldı bu mübarizənin Qarabağ probleminin həlli ilə bağlı danışıqlara təsir imkanlarına, əslində, Paşinyan iqtidarının bu problemin həlli ilə bağlı məsələlərə münasibəti, etiraf edək ki, Koçaryandan bir o qədər də fərqlənmədi. Mahiyyət, sadəcə olaraq, indiki mərhələdə bu klanlararası savaş danışıqların növbəti raunduna ciddi təsir göstərə bilər. Əslində, danışıqlar ləngiyə bilər, amma bütövlükdə, ATƏT-in Minsk Qrupu da, tərəflər də danışıqların davam etdirilməsində maraqlıdırlar. Demək olar ki, Ermənistan tərəfi, bu illər ərzində 18 min dəfə atəşkəs şərtlərini pozub, bu, ATƏT-in Minsk Qrupuna da bəllidir, haqlı tərəfin kim olduğu da bəllidir. Sadəcə olaraq, həm ATƏT-in Minsk Qrupunda təmsil olunmuş dövlətlər, həm də beynəlxalq hüquqa görə, məsuliyyət daşıyan beynəlxalq güclərin ikili standartları problemin indiyə qədər, məhz beynəlxalq hüquq-müstəvi üzərində, həm də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı məsələləri yubadır.

### Politoloq Elxan Şahinoğlu: "Ermənistan hakimiyyətinə bir başqası gələrsə, bu, Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir edə bilər"

- Ermənistanda hakimiyyət dəyişikliyi və Paşinyanın da inqilab yolu ilə hakimiyyətə gəlişi, onu göstərir ki, Ermənistanda, çox təəssüf ki, hansı hakimiyyət olursa-olsun, Dağlıq Qarabağ münaqişəsinin həllinə heç bir addım atmır. Paşinyana, müəyyən ümidlər var idi ki, bəlkə bu, müsbət mənada, eks-prezidentlərdən fərqlənə, amma fərqlənmədi, əksinə, indi deyir ki, Qarabağ Ermənistanın ərazisidir. Bir sözlə, Ermənistanda hakimiyyət dəyişikliyi Dağlıq Qarabağ münaqişəsinin həllinə, çox təəssüf ki, müsbət təsir etməyəcək. Doğrudur, Pa-



şinyanın mövqeləri zəifləyir, ona qarşı təzyiqlər artır, Qarabağ klanı da, bu aylarda güclənə bilər, çünki Paşinyan verdiyi vədləri, artıq yerinə yetirməkdə çətinlik çəkir, üstəgəl də, küçə mitinqlərinin sayı artır və Rusiya ilə münasibətdə müəyyən problemlər yaşanır, bütün bunları topladıqda, bəli, mümkündür ki, gələn il Ermənistanda hansısa bir hakimiyyət dəyişikliyi baş versin. Bu dəyişiklik yenə də, inqilab yolu ilə ola bilər. Bu, o deməkdir ki, Ermənistan hakimiyyətinə bir başqası gələrsə, Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir edə bilər.

***GÜLYANƏ***

# "Moskva-İrəvan münasibətlərində gərginliklər var"

***"Oktyabrın 1-də Ermənistanda Avrasiya İqtisadi Birliyinin növbəti sammiti keçiriləcək. Görüş ərəfəsində Moskva ilə İrəvan arasında münasibətlərdə gərginliklər var". Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib.***



Politoloqun sözlərinə görə, Nikol Paşinyan hakimiyyətə gəldiyi 1 il ərzində Rusiya ilə münasibətlərdə yeni gərginlik ocaqları yaradıb: "Birincisi, Rusiya prezidenti Vladimir Putin əvvəlkitək həbsdə olan dostu Robert Köçəryanı müdafiə edir, həbsdə olan dostuna təbrik məktubları göndərir. Aydındır ki, bu təbriklər Ermənistanın baş naziri Nikol Paşinyanın xoşuna gəlmir, ancaq asılı olduğunu qonşusunun liderinin siyasətini tənqid edə də bilmir. Ermənistan hakimiyyəti ehtiyat edir ki, Vladimir Putin Yerevanda olanda həbsdə olan Robert Köçəryanla görüşmək istəyə bilər. Putinə "yox" cavabı verməyin nə demək olduğunu Paşinyan anlamış deyil.

İkincisi, rəsmi Moskva Ermənistanda ittiham olunan bir sıra şəxsləri İrəvana təhvil verməkdən imtina edir. Ermənistanda barəsində cinayət işi başlanan "Ketrin qrup" şirkətinin başçısı Miqran Poqosyan Moskvada siyasi sığınacaq alıb. Avqust ayında Moskva Poqosyanı İrəvana verməkdən imtina etmişdi. Onun Rusiya vətəndaşı olduğu barədə məlumatlar var.

Üçüncüsü, Ermənistan da Rusiya vətəndaşı Vitali Şişkinə siyasi sığınacaq verib. Şişkin radikal millətçidir. Rusiya onu həbs etmək istəyir. Şişkin həbs təhlükəsindən yayınaraq Ermənistana qaçıb. Şişkin Ermənistana 6 ay bundan əvvəl gedib. Bu, Ermənistan müstəqillik qazandıqdan bu yana Rusiyanın "vətəndaşımı mənə təhvil ver" istəyini yerinə yetirmədiyi nadir hadisədir.

Nikol Paşinyan İran prezidenti Həsən Ruhani oktyabrın 2-də Ermənistana dəvət edib. Paşinyan İranın da Avrasiya İqtisadi Birliyinin üzvlüyə qəbul olunmasını istəyir. İranın təşkilata qzv qəbul olunması üçün bütün üzv dövlətlərin razılığı lazımdır. Belə bir ümumi razılığın olub-olmadığı bəlli deyil. Amerikanın sərt sanksiyaları üz-üzə qalan İran qonşu dövlətlərlə daha sıx əməkdaşlığa çalışması anlaşılandır. Buna görə də İran Avrasiya İqtisadi Birliyinə üzvlükdən imtina etməz.

Rəsmi Yerevan sammitdə iştirak edən prezidentlərin "erməni soyqırımı" abidəsini kollektiv şəkildə ziyarət etməsini istəyəcək. İran prezidenti Ermənistana səfəri zamanı həmin abidəni ayrılıqda ziyarət edərsə bu Türkiyədə və Azərbaycanda xoş qarşılanmayacaq. Türkiyə və Azərbaycan İranla iqtisadi əməkdaşlığın genişlənməsinin və ortaq layihələrin reallaşmasının tərəfdarıdırlar. Ermənistan Türkiyə və Azərbaycana düşmən olan dövlətdir. Bu baxımdan rəsmi Tehran qonşularla münasibətlərdə bu amili nəzərə almalıdır".

***Ceyhun Rasimoğlu***

# Paşinyanın pedofil dəstəkçisi mühakimə olunur

Paşinyanı dəstəkləyən inqilabçı fəal ABŞ-da pedofiliyada günahlandırılır. SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Kaliforniyada yaşayan hüquq müdafiəçisi, araşdırmaçı jurnalist və Ermənistan Siyasi Forumu analitik mərkəzinin üzvü Ara Manukyan pedofiliyada ittiham olunur.




Məlumatda qeyd olunur ki, bu barədə öz Facebook səhifəsində istifadəçi Raffi Şişoyan yazıb. Məlumata əsasən, Ara Manukyan 6 Avqust 2019-cu il tarixində seksual xarakterli cinayətlərdə, xüsusən də pedofiliyada ittiham edilib. Kaliforniya Cinayət Məcəlləsinə əsasən, ittiham 14 yaşına çatmamış, bir sözlə yetkinlik yaşına çatmayan şəxslə əxlaqsız hərəkətlərə görə irəli sürülüb.

Facebook istifadəçisi yazır ki, bu, ictimai qeyddir və bütün insanlara, həmçinin təşkilatlara cinayətkar Ara Manukyan ilə münasibətlərinə yenidən baxmağa və övladlarının təhlükəsizliyini təmin etməyə çağırışdır.

Ara Manukyana qarşı qətimkan tədbiri olaraq, 1mln. 330 min dollar girov təyin edilib və onu 10 ilə qədər həbs cəzası gözləyir.

Tert.am bu yazının müəllifi Raffi Şişoyan ilə əlaqə yaratdığı zaman, Facebook şəbəkəsinin sözügedən istifadəçi, sənədləri açıq mənbələrdən - Kaliforniya məhkəməsindən və polisdən əldə etdiyini bildirib.

"Mən uzun müddətdir Ara Manukyanın fəaliyyətini izləyirəm və bilirəm ki, o ABŞ-dakı bütün erməni icmasını parçalayıb. Bunu həm Ermənistandakı inqilabdan əvvəl, həm də sonra edib. Əvvəllər Sasna Tsrer hərəkatını müdafiə edən Ara Manukyan, indi Paşinyan hökumətini dəstəkləyir", deyə Raffi Şişoyan açıqlama verib. R.Şişoyan Ara Manukyana qarşı qaldırılan ittiham maddələrini də yayımlayıb.

# Xalq AXC-Müsavat iqtidarının ata-anasının qəbrinə niyə söyürdü?

## Yaxud tarix unutmur, unutdurmur!

*1993-cü ilin may ayının 25-də Əbülfəz Elçibəyin hüquq-mühafizə orqanları işçiləri ilə keçirilən müşavirədəki çıxışı bundan sonra hələ uzun illər danışılacaq, mövzu predmeti olacaq. Çünki bundan artıq sübuta, bundan artıq dəlilə də ehtiyac yoxdur ki, AXC-Müsavat hakimiyyətinin Azərbaycan xalqının və dövlətinin başına açdığı oyunlardan danışasan. Müharibə aparan respublikada xaos və anarxiyanın, özbaşınalıqların tüğyan etdiyi bir zamanda, hakimiyyətdə olanların çirkin əməlləri o qədər çox olub ki, həmin əməllər barədə aylarla, illərlə danışsan belə bitib-tükənməz. 26 ildir ki, müxalifətdə olub, yenidən hakimiyyətə iddialı kimi çıxış etmək isə, sadəcə, həyasızlığın son həddidir.*

### Əli Kərimli hakimiyyəti mafioz qüvvələrə bu cür transfer etmişdi

Bu gün özünü Elçibəyin davamçısı kimi təqdim edən, lakin ona və ətrafına arxadan zərbə vurub xəyanət edən, yaratdığı "Yurd" qruplaşması vasitəsi ilə AXCP-ni işğal edib-parçalayan Ə.Kərimlinin həmin müşavirədə dövlət katibi statusunda etdiyi etiraf təsdiq edir ki, onların hakimiyyətləri, hətta o qədər zəif və naşı olub ki, ölkəni iqtidar deyil, mafioz qüvvələr idarə edib. SİTAT: "Respublikada mafioz qüvvələr güclənir və onlar ölkəni, demək olar ki, idarə edir".

Məgər bu ifadənin özü sübut etmirmi ki, hakimiyyətin bütün rıçaqları əlində ola-ola həmin hakimiyyətə yiyə və sahib çıxmağı bacarmadığını etiraf edirsən? Yaxud bütün bunlardan sonra yenidən hakimiyyətə iddialı olduğunu qırmızı-qırmızı bəyan edərkən, 26 il bundan öncəki etiraflarını xatırlamaq bu qədərmi çətindir, Ə.Kərimli?!

### Baş prokuror dövlət katibini korrupsiyada ittiham edib

Biz, burada AXC-Müsavat iqtidarının baş prokuroru olmuş İxtiyar Şirinin Elçibəyə və Ə.Kərimliyə xitabən dediklərini də xatırlaya bilərik. SİTAT: "İflic vəziyyətində olan dövlət aparatının özü rüşvətxorluqla məşğuldur və rüşvətxorluğa qarşı mübarizə də, məhz dövlət aparatından başlamalıdır".

Diqqət yetirin, Ə.Kərimli mafioz qüvvələrin ölkəni idarə etdiyini bildirir və baş prokuror dövlət aparatını korrupsiyada ittiham edir. Bax, bu idi bu gün hakimiyyətə gəlmək iddiasında olanların iqtidarı!

Eləcə də, digər nazirlərin və dövlət adamlarının dediklərinə diqqət yetirək:

**Ədliyyə naziri: "Hakimiyyətimiz dövründə rüşvətxorluq kommunist dövründəkindən də çoxalıb".**

**Gömrük Komitəsi sədri: "Xalqın qabağında dayanan oğlanlar bu gün pulun qabağında dayana bilmir".**

**Ali Məhkəmə sədri: "Nazirlər Kabineti bu gün milyarderlərdən ibarətdir" və s.**

**Əbülfəz Elçibəy: "Gələcəkdə aramızda olan bu adamların canı xalqın əlindən qurtarmayacaq"**

İndi isə, əsas mətləbə - prezident Əbülfəz Elçibəyin dediklərinə keçid alaq. O, baş prokurora xitabən bunları demişdi. SİTAT: "Xarici iqtisadi əlaqələr pozulur, benzin, neft və taxıl respublikadan dağıdılır. Azərbaycanın rayonlarında benzin tapılmır. Amma Ermənistan Azərbaycan neftini aparır, özü də tonla. Bunu adi vətəndaş da bilir. Xalq deyir ki, kaş canımız qurtaraydı bu Xalq Cəbhəsinin əlindən. Heç kim, heç birimiz bu yolla axıra qədər gedə bilməyəcəyik. Bunu birdəfəlik hamınız yaxşı bilin. Bu xalq əgər azadlıq və demokratiya uğrunda mübarizə aparırsa, bu xalq əgər böyük ipmeriyadan canını qurtara bilirsə, gələcəkdə aramızda olan bu adamların canı xalqın əlindən qurtarmayacaq. Prokurorluq da, məhkəmə də, xahiş edirəm, buna cavab versin: bu gün bu respublika niyə dağılır?"

### İxtiyar Şirin: "Rüşvətxorluqla məşğul olan dövlət aparatı rüşvətxorluqla mübarizə apara bilməz və biz bu məsələnin həllini dövlətdən başlamalıyıq"

Baş prokuror: Sizin narazılığınız çox haqlıdır. Bu, nəinki sizi, bütün xalqımızı narahat edir. Və mən hesab edirəm ki, şübhəli danışmaq lazım deyil. Açıq danışmaq lazımdır. Respublikamızda rüşvətxorluğun belə tüğyan etməsi, bu cür baş alıb getməsi hüquq-mühafizə orqanlarının özünün həmin hallara şərait yaratması nəticəsində baş vermişdi. Dövlət aparatında, hüquq-mühafizə orqanları arasında rüşvətxorlar həddindən artıq çoxdur. Bunu açıq qeyd etmək lazımdır və biz hələ də bələlərinə qarşı mübarizə aparmaqda zəiflik göstəririk. Nə qədər ki, dövlət aparatında sağlam əhval-ruhiyyə yaratmamışıq, nə qədər ki, dövlət aparatında, o cümlədən, hüquq-mühafizə orqanlarında rüşvətxorları ifşa edib kənarlaşdırmamışıq, belə şərait davam edəcəkdir. Dövlət aparatı özü iflic vəziyyətindədir, daha doğrusu, özü rüşvətxorluqla məşğul olur. Ona görə də, rüşvətxorluqla məşğul olan dövlət aparatı rüşvətxorluqla mübarizə apara bilməz və biz bu məsələnin həllini dövlətdən başlamalıyıq.

Elçibəy: Sən söz verirsən ki, Azərbaycanın nefti gedib Ermənistanın əlinə çatmayacaq? Azərbaycanda rayonlarda benzin yoxdur ki, avtobuslar işləsin. Camaat ata-anamızın qəbrinə söyür.

### Dövlət vəzifələrində oturanların ucuz statusları...

Beləliklə, bütün bu faktlar yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikasının məhvi prosesinin sürətlənməsinə doğru istiqamət aldığını kifayət qədər sübut edən faktorlardandır. Ölkənin separatçı qüvvələr tərəfindən parçalanması, hümbətovçuların, bir tərəfdən sadvalçıların, digər tərəfdən, ac çaqqallar tək hücum çəkməsi, Surət Hüseynovun hərbiləşdirilmiş reket dəstələri, İsgəndər Həmidovun "boz qurdçular"ının özbaşınalıqları, boz pencəklilərin silahlı hədələri, Rəhim Qazıyevin silah-sursat ticarəti bir tərəfdən, Ermənistanın torpaqlarımızı işğal etməsi prosesi isə, o biri tərəfdən, ölkəmizin tari-mar olmasına münbit şərait yaratmışdı.

Bu da, son deyil. Əgər biz həmin vaxt hakimiyyətdə olanların təcümeyi-hallarını da nəzərdən keçirsək, bu zaman AXC-Müsavatın birillik iqtidarlarının nə qədər naşı komandadan ibarət olduğunu növbəti dəfə xatırlamış olarıq. Misal üçün, parlamentin sədri İsa Qəmbər kiçik elmi işçi - laborant idi, 11 il ərzində, hətta kiçik bir dissertasiyanı belə müdafiə edə bilməmişdi. Baş nazir P.Hüseyn əvvəllər kiçik mövsümi ticarətlə məşğul olmuşdu - bazar adamı idi. Belə bir təcrübədən sonra əvvəl dövlət katibi kimi ciddi siyasi post, daha sonra baş nazir postu onun miqyası üçün olduqca ağır idi. Adi fizika müəllimi olmuş müdafiə naziri Rəhim Qazıyev Şuşanın itirilməsində, ordunun iflic vəziyyətinə salınmasında xüsusi rol oynadı. Onun rəhbərlik etdiyi ordu siyasi proseslərdə, müstəqil tərəf kimi çıxış edərək, parlament sədrinə və prezidentə meydan oxuyurdu. Daxili işlər naziri İ.Həmidov canlı efirdə söyüş söyərək, bir müxalifət nümayəndəsini döymüş, buna görə heç bir məsuliyyət daşımamışdı. Üstəlik, vəzifədən çıxandan sonra iyunun 4-də dərhal müxalifətə keçmiş Gəncədə iğtişaşlar başlayan gün Bakıda AXC hakimiyyətinə qarşı mitinqlər təyin etmişdi. Xarici işlər naziri Tofiq Qazımov Fizika İnstitutunun heç bir diplomatik təcrübəsi olmayan, heç bir xarici dil bilməyən kiçik elmi işçisi idi və belə mühüm vəzifəyə təyin edilmişdi. Yeni müstəqil ölkənin diplomatik korpusu da özü kimi təcrübəsiz, texniki sahələrdə çalışan kiçik elmi işçilərdən formalaşdırmışdırmışdı. Məhz bu cür komandanın idarə etdiyi ölkədə baş verənlər o qədər də təəccüblü deyil.

### Elçibəy prezident olsa da, ölkədə real vəziyyətdən - cəbhədəki durumdan bixəbər idi

Başqa tərəfdən, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yolla xaricə satılması, bir sözlə, dövlət əmlakının talan edilməsi adi hala çevrilmişdi. Ölkədə özəlləşdirilmə prosesi getmədiyi halda, 3 mindən çox xidməti maşını məmurlar şəxsi istifadə üçün mənimsəmişdilər. Ehtiyat mənzil fondu AXC hakimiyyətinin ilk aylarında satılıb mənimsənilmiş, bir çox hallarda, yeni "bəylər" tərəfindən məşuqələrinə ərməğan edilmişdi. Heç bir hüquqi əsası olmadan yaradılmış "ekologiya polisi", "bələdiyyə polisi" kimi qeyri-qanuni qurumlar, faktiki olaraq, daxili işlər nazirinin varlanması naminə dövlət səviyyəsində "reket" fəaliyyətlə məşğul idilər. Kriminal düşüncəli adamlar dövlət başına vəzifəyə gətirildi, ölkədə mənəviyyatsızlıq hökm sürürdü. Daxili işlər naziri insanları qanunsuz həbs edir, məhkəməsiz 700 nəfər məhbusu azadlığa buraxıb, silahlandırmışdı.

Dövlət postunu tutan Ə.Kərimlinin nəzarətində olan çoxsaylı media qurumları baş nazir və spikeri ələ salırdı, prezidentin özünə yaxın AXC İcraiyyə Komitəsi rəsmi bəyanatla nazirləri, parlament sədrini dövlətə və ya hakimiyyətə xəyanətdə ittiham edirdi. Elçibəy prezident olsa da, ölkədə real vəziyyətdən, cəbhədəki durumdan bixəbər idi. Ali Baş Komandan olduğunu unutmuş bu şəxs nazirlərin fəaliyyətinə nəzarət etməyi lazım bilmirdi. Belə daxili didişmələr, eyni zamanda, xalq tərəfindən onlara olan inamsızlıq nəticəsində, cəmi 1 il hakimiyyətdə qala bildilər. Lakin bu dövr Azərbaycanlın yeni tarixinin ən faciəli dövrü idi və nəticədə ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması və torpaqların işğalı ilə nəticələndi.

### Xalq anlayırdı ki, yeganə çıxış yolu, məhz bu dahi şəxsiyyətin və böyük azərbaycanlının qayıdışıdır!

Məhz 15 iyun 1993-cü ildə xalqımız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə xilas oldu. Çünki xalq anlayırdı ki, yeganə çıxış yolu, məhz bu dahi şəxsiyyətin və böyük azərbaycanlının qayıdışıdır. Onun ölkəni dağılmaqdan xilas etmək üçün atdığı addımlar və əldə olunan nəticələr, haqlı olaraq, 15 iyunun Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi düşməsinə əsas yaratdı və bu günün güclü, qüdrətli, nüfuzlu Azərbaycanı Onun - Heydər Əlirza oğlu Əliyevin şah əsəridir. Öz ölkəsini sevən, Vətəni, dövlətçilik maraqları uğrunda canını hər an fəda edə biləcək hər bir azərbaycanlı bu reallığı dərk edir və əlbəttə ki, keçmişini də unutmayaraq, yalnız uğurlu gələcəyinə doğru inamla addımlayır!

*Rövşən NURƏDDİNOĞLU*

# Çözülməyən birgə mitinq mövzusu

## *Səbəb eyni bəhanə, eyni böhtan və eyni böhtançılar...*

***Söhbət müxalifətin yanvarın 19-da keçirdikləri mitinqin davamı olaraq, artıq 6 aydan çoxdur ki, hər cür vasitə ilə mitinqə çağırışlar etməkdədirlər. Nə gecə dedilər, nə gündüz, sanki ölkə “batır”, əhali “boğulur”, “onların tək xilası mitinqə gəlməkdir” deyə, hay-şüvən saldılar. Hələ, üstəlik, Avropada “siyasi mühacir” adı altında yaşayanlara da, çağırış etdilər ki, bütün müxalifət cəbhəsinin təmsilçiləri, “birləşin”, “çəkici bir zindana döyün” də dedilər.***

Bəli, “siyasi mühacir”lərin əxlaqsız çağırışları da oldu. Bir də bu zəhərli parazitlərdən hansı əxlaqı gözləmək olar? Bu, o əxlaqsız “siyasi mühacirlər”dir ki, aldıqları qrantlara görə, bütün mənəviyyatlarını sataraq, anti-Azərbaycan kampaniyalar təşkil edirlər. Faktlar da bunu təsdiqləyir. Azərbaycanda beynəlxalq əhəmiyyətli tədbirlər, tarixi və önəmli günlər ərəfəsi xarici ölkələrdə Azərbaycan əleyhinə təbliğata start verilir və mitinqlər keçirmək iddiasına düşürlər. Ölkəmizdə keçirilən uğurlu sosial islahatlardan qaşınmaya düşən AXCP- “Milli Şura” və Müsavatın mitinq keçirmək istəyi əvvəlki kimi yenə də ürəklərində qalacaq. Düşmən dəyirmanına su tökməyi özlərinə şərəfsizlik bilən dağıdıcı müxalifət satqınları - Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli, R.İbrahimbəyov, G.Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl ... və həmişə olduğu kimi, bu gün də 5-10 avro müqabilində erməni puluna satın alınmışlar beynəlxalq aləmdə Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışırlar.

### “Siyasi mühacirlər” - dağıdıcı müxalifətin törəmələri qırğına çıxdı

Və bu gün dağıdıcı müxalifətin törəmələri olan və xarici ölkələrdə Azərbaycan əleyhinə “sapı özümüzdən olan baltalar” ermənipərəst dairələrin qrantları hesabına Azərbaycana qarşı Vətən xainləri - H.Müntəzir, A.Qeybulla, Orduxan Teymurxan, M.Mirzəli, T.Sadıqlı, A.Məmmədov, Q.Zahid, N.Güləhmədoğlu, F.Hüseynov, Ataxan Əbilov, Arif, Leyla və Ramiz Yunus kimi antimilli şərəfsizlər bu gün çirkin əməllərinə görə qrantlarla təmin olunur və bu qrantlar isə onları üzüzə qoyaraq qırğına çıxırır. Hətta xaricdən alınan qrantları bölüşdürərkən, bir-birilərini saxtakarlıqda günahlandırmaqla, söyüşün biri bir qara qəpiyə dəyən küfürlər edirlər.



### Tural Abbaslı: “Sadəcə, varlıqlarını qorumağa çalışırlar”

“Ağ Partiya” lideri Tural Abbaslı bugünkü müxalifətin, sadəcə, adı olduğunu bildirib: “Ancaq bilinmir ki, müxalifət nə işi ilə fərqlənir. 90-cı illərin əvvəli bu müxalifət müstəqillik şüarları ilə mübarizəyə başlamışdı, sonra iqtidara da gəldi. Amma bəlli hadisələrdən sonra müxalifətə keçməli oldular və müxalif mövqedə hər seçkidən-seçkiyə, hər mərhələdə çoxlu səhvlərə yol verdilər. 2005-ci ildən müxalifətdaxili mübarizə start götürdü, kim əsas liderdir, kimin aksiyada adamı çox oldu.

Təbii ki, hakimiyyətin sərt, düzgün siyasəti də onların zəifləməsinə ciddi təsir elədi. 2005-ci ildən isə, müxalifətdaxili mübarizə start götürdü. “Kim əsas liderdir”, “kimin aksiyada adamı çox oldu” və s. mübahisələr başladı”.

Partiya başqanı hesab edir ki, bu müxalif qüvvələr xalq içində etimadını itirib və yeni siyasətçilər meydana çıxara bilməyiblər: “Sadəcə, varlıqlarını qorumağa çalışırlar. “Ağ Partiya” isə iqtidara gəlməyi, hakimiyyətdə olarkən, Qarabağ problemini həll etməyi, ölkənin sosial-iqtisadi problemlərini yoluna qoymağı, demokratik mühit yaratmağı hədəfləyib. Bunun üçün, ilk növbədə, xalqın rəğbətini qazanmaq lazımdır”.

### Qulamhüseyn Əlibəyli: “Siyasi partiyaların əsas hədəfi iqtidara gəlmək olmalıdır”

“Aydınlar” Partiyasının sədri Qulamhüseyn Əlibəylinin bildirdiyinə görə, siyasi partiyaların əsas hədəfi iqtidara gəlmək olmalıdır. Onun sözlərinə görə, əksər partiyalar seçkiqabağı bunun üçün, ilk növbədə, seçki mühitinin demokratikləşməsi uğrunda mübarizəyə başlayır: “Lakin müxalifətin seçki praktikasında irəliləyiş də yoxdur. Amma bu gün sosial dəyişikliklərdə müxalifətin mübarizəsinin payı var. İqtidar özü də dəyişikliklər arzulayır. Sadəcə, müxalifətin hazırda mübarizəsi insan haqları üzərində daha çox fokuslanıb, nəinki hakimiyyətə gəlmək”.

### Xəzər Teyyublu: “Bu gün müxalifətdə çulğalaşma və birləşmə meyilləri görünmür”

KXCP idarə heyətinin üzvü Xəzər Teyyublu hesab edir ki, siyasi partiya formalaşanda onun hədəfləri olur: “Hazırkı real müxalifətin məqsədi seçki ilə iqtidara gəlməkdir. Hay-həşirlə hakimiyyətə gəlmək olmaz, əsas məsələ xalqa xidmət mandatını qazanmaq olmalıdır. Amma bu gün müxalifətdə çulğalaşma və birləşmə meyilləri görünmür”.

### Natiq Miri: “Əli Kərimli cəbhəçilərin və xalqın gözünü “mazol” edib”

Siyasi analitik Natiq Miri ötən əsrin 90-cı illərin müxalifətini bugünkü müxalifətdən hədəflərdə yox, fəaliyyət formasında fərqləndirir. Əli Kərimli cəbhəçilərin və xalqın gözünü “mazol” edib”. Çünki müxalifətdə mübarizə daxildə gedir, daha çox birincilik uğrunda rəqabət aparılır, partiyaların daxili idarəetməsində demokratiya problemləri mövcuddur. AXCP və Müsavatın hər hansı fəaliyyət proqramı yoxdur, rayon təşkilatları da fəaliyyətsizdirlər. Çünki fəaliyyət imkanları məhdudlaşıb. Eyni zamanda, 90-cı illərin siyasi təfəkkürü dəyişməyib. Bəllidir ki, Ə.Kərimli əvvəllər də dağıdıcı fiqur olub, indi də eyni missiyanı davam etdirir. Bu amillər dəyişmədikcə, müxalif təşkilatlar yenilənməyəcək”.

Göründüyü kimi, “liderlik”, “mənəm-mənəmlik” uğrunda savaş qızışdıqca Azərbaycan əleyhdarlarının çirkli pulları ilə bəslənən və onların dirijor çubuğu ilə idarə olunan bu xəyanətkarların özləri boyda zibilləri, getdikcə daha çox üzə çıxacaq. Və bu gün hansı formadasa mitinq keçirmək istəkləri isə, yenə də iflasa uğrayacaq. Sonda bu satqın xəyanətkarlara böyük dramaturq Mirzə İbrahimovun “Böyük dayaq” filmində deyilən sözü demək kifayətdir: “Sizlər nə zəhərli ilanmışsınız, əəə ?!”

**_Rəfiqə HÜSEYNOVA_**

# Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəxsdə 1,8 kiloqramdan çox heroin aşkarlanıb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxsə qarşı uğurlu əməliyyat tədbiri keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini Ş.Əliyev saxlanılıb. Axtarış zamanı onda 1,8 kiloqramdan çox çəkidə heroin aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırmalar davam etdirilir.






# *NİYƏ ÖLMƏDİN, ƏLİ KƏRİMLİ?!*

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Dövlət başçısının bir neçə gün ölkədə olmaması məsələsindən dərhal öz çirkin maraqları üçün istifadə etməyə cəhd göstərən şivənçi müxalifət “liderləri” öz “səviyyələrinə” layiq ucuz və iyrənc təfəkkürləri ilə cəmiyyətdə çaşqınlıq yaratmaq istədilər. Amma onların növbəti oyunbazlıqları, sözün əsl mənasında, içlərində qaldı. Özü də elə qaldı ki..! Demək, xarici kəşfiyyat orqanları ilə sıx təmasda olan, hətta onlardan biri ilə aşiq-məşuq olub, ikilikdə bir alma dişləyən və hazırda ABŞ-da yaşayan Sevinc Osmanqızının, guya ki, sözügedən məsələdə “sensasiya” yaratmaq cəhdi birbaşa AXCP sədri Əli Kərimlinin başında çatladı, özü də necə! Çünki bildiyimiz kimi, Əli Kərimli yalan-palan konteksti əsasında sosial medialar vasitəsi ilə canlı yayımlara çıxıb, boğazını uzada-uzada, başını əsdirə-əsdirə çənə döyməyi çox xoşlayır.***

Bu gün onun həm də bloger olması kimsəyə sirr deyil. Lakin mövzudan yayınmayaraq, yenidən qayıtmaq istəyirəm sözügedən məsələyə. Beləliklə, S.Osmanqızı Ə.Kərimlini canlı yayımına dəvət edir və onlar başlayırlar boşboğazlıq edə-edə müxtəlif versiyalarla camaatın başını qatmağa. Ay, nə bilim, filan şey belə olmalıydısa, bu cür oldu, beşməkan-zad bu cür olmalıydısa, belə oldu və nəhayət, yuxarıda qeyd edilən mövzu ətrafında ən idbarçı, ucuz, hətta siyasi deyil, elə fiziki fahişəlik yolu ilə xaltoplama, özünüreklam zamanı xəbər gəldi ki...

Xəbər gəldi ki, dövlət ən təməlli dayaqları ilə ayaq üstündədir və dövlət başçısı iş başında müxtəlif görüşlər keçirir, sərəncamlar verir və s. Bax, onda elə bil ki, Ə.Kərimlinin təpəsinə bir tiyan qaynar qır, boğazına isə ərimiş qurğuşun töküldü, onu yandırıb-yaxdı, cızdağını çıxardı, hələ harasınasa, hansısa bədən deşiyinə paz girdisə də, daha onu yazmıram. Məncə, oxucuların özü müəyyən eləsə, daha yaxşı olardı.

Sevinc Osmanqızının isə, belə bir vəziyyətdə, bu cür situasiyada xəbəri eşidən qulağından qan açılmasına, bəlkə də ayrı nöqtələrindən də qan fışqırmasına şübhəm qalmadı. Qalmadı, ona görə ki, kaş həmin andaca həm Əli Kərimlinin, həm də Sevinc Osmanqızının fizianomiyalarındakı cizgilərin arasındakı idbarlığın necə idrarlığa çevrilməsini görməyənlər görərdilər. Fəqət, hər vaxtkı kimi bunlar guya “çıxış yolu” tapdılar, gülünc, yersiz, istehzadoğurucu bəhanələri ilə. Demə ki, Azərbaycandan bunların canlı yayımlarına müdaxilə olundu-zad... Bax ha, Azərbaycandan ABŞ-a (!) internet üzərindən, özü də canlı yayıma “müdaxilə edilib”.

Sağlam düşüncəli insanlar, onsuz da, belələrinin izafi vay-şivənçiliklərinin çoxsaylı şahidləridirlər. Misal üçün, bir neçə gün əvvəl “Milli Fədailər” adlanan qrupun başçısı Fuad Muradovun, bir neçə il əvvəl, silahla çəkdirdiyi fotosunu “Facebook” sosial şəbəkəsində yaymasının ardınca, Ə.Kərimli dərhal özünə qarşı “sui-qəsd” (?) hazırlığı kimi qələmə verib, şalvarını çəkdi başına. Amma sonradan bir sıra məqamlar aydın oldu və bu, başqa söhbətin mövzusudur. Sadəcə, məsələ ondadır ki, gündəmdə qalmaq, özlərini zorla onları rədd edən xalqa sırımaq üçün dəridən-qabıqdan çıxmaq xəstəliyi, artıq hər kəsin zəhləsini aparıb. Əgər Ə.Kərimlidə və onun yan-yörəsindəkilərin, həqiqətən də, ağılları, şərəfləri, mənəviyyatları, vicdan və layaqətləri olsaydı, zamanında üzüsulu ikən, cəhənnəm olub-çəkilərdilər bir kənara. Ancaq ağıl, ləyaqət, vicdan, şərəf və mənəviyyat bunlarda nə vaxt olub ki...

***P.S.*** *Bütün bunlardan sonra özündə təpər tapıb, istər öz əcəli ilə, istərsə də öz əli ilə ölmək lazım idi Ə.Kərimliyə. İndi sual edirəm ki, axı niyə ölmədin, Əli Kərimli? Lakin onda belə məsələlər üçün də kişilik faktoru yoxdur, ona görə də, sualımın cavabsız qalacağına 100% əminəm!*

# İlqar Məmmədovla Sevinc Osmanqızı arasında növbəti söz savaşı

## *Kor-kora kor deməsə, bağrı çatlar*




***Son günlər AXCP ilə "REAL" arasında baş verən intriqalar getdikcə kəskinləşməkdədir. "REAL"-ın sədri İlqar Məmmədov bu intiriqanın sonuna qədər gedərək, yeni faktlar üzə çıxaracağını deyib. Bu günlərdə İ.Məmmədov son statusunda isə Ə.Kərimlinin ingilisdilli əyalət tribunası və təbliğatçısı olan Sevinc Osmanqızına, eləcə də, sözügedən partiya ilə bağlı digər faktlara aydınlıq gətirib. Partiya sədri statusunda yazır ki, "İlhamsevərlər klubu"nun üzvləri Natiq Cəfərlini birinci dəfə hədəfə alıb qaralamaq cəhdi etmirlər. Belə hallar çox olub: "Mən həbsdən çıxandan dərhal sonra Sevinc Osmanqızı zəng vurub "xəbərçi"liyi birinci etdi və Natiq Cəfərli barədə bildiridi ki, guya N.Cəfərli iqtidara işləyir. Natiqə heç nə demədim, mövzunu dibinə kimi araşdırdım. Saxta və boş bir ittiham idi. Fikirləşdim ki, Sevinc xanım, sadəcə, səhv edib. Sonra gördüm ki, S.Osmanqızı bir partiyanın mətbuat katibi imiş. Əməkdaşlığı kəsdim, çünki mənim bir partiya sədrinə deməyə sözüm varsa, birbaşa özünə deyərəm, mətbuat xidmətinə yox".***

### İngilisdilli əyalət tribunasından hələ çox mətləblər üzə çıxacaq

Bəli, bu ingilisdilli əyalət tribunası olan satqın və əxlaqsız S.Osmanqızından çox faktlar üzə çıxacaq. Bu, o S.Osmanqızıdır ki, əxlaqsız və satqın Ə.Kərimlinin cinayətkarlara cinayət əməlinə görə dəstək olaraq ənənəvi "siyasi məhbus" məsələsini gündəmə gətirməklə bundan dividend götürməyə nail olmaq üçün S.Osmanqızı da, öz növbəsində, məkrli ssenarilərini işə salıb. "Siyasi məhbus" məsələsini özləri üçün biznes sahəsinə çevirən, varlanmaq, qrant almaq ehtirası ilə yanan, eyni zamanda, dünya ictimaiyyətinin diqqətini cəlb etmək istəyən, özlərindən "demokratik" obraz yaratmağa cəhd edən bu mənafe qruplarının növbəti addımları onların qaragüruhçu xislətini bir daha göstərdi. Görünən budur ki, xarici təxribatçı, ermənipərəst dairələrin dəstəyi ilə bu mövzunu ortaya atmaqla destruktiv, antimilli fəaliyyətlərini artırmaq üçün babat qrant alıblar. Bu isə, bir daha...

### "Soros"un mənəvi qızı Sevinc Osmanqızının mənəviyyatsızlığını təsdiqləyən faktordur

Bəli, "Soros"un mənəvi qızı sayılan S.Osmanqızının hazırda irəli verilməsi, bu siyasi oyunun mahiyyətini çılpaqlığı ilə ortaya qoymaqla, bir daha onun mənəviyyatsız və əxlaqsız olduğunu sübut edir. S.Osmanqızı aşırı qədər satqındır ki, Ə.Kərimlinin yanındadır. S.Osmanqızı, o S.Osmanqızıdır ki, hətta "20 Yanvar", 20 noyabr, Xocalı və xalqımızın başına gətirilən digər faciələrdə olanları bilmək haqqımız və borcumuz deyil" deyir. S.Osmanqızını nə qədər vəhşi, faşist adlandırsaq da, ondan da ağır bir söz axtarışına çıxdım. Tapdığım söz insan yox, İBLİS oldu. Bəli, S.Osmanqızı iblisdir. Çünki hətta "Sarkisyan belə, etiraf edir ki, Xocalıda insanları bilə-bilə qırıblar"- deyirsə, bu iblis və onun kimilər - Orduxanlar, Fəxrəddinlər, Vidadilər, Yunuslar, Xədicələr və sırası, mənşəyi çürük bu erməni təəssübkeşləri bunu anlamır. Çünki bu qərəzli, üfunət dolu, idbar, anti-Azərbaycan, yalnız qara-qura ilə məşğul olan bu iblis xislətlilərin hamısı AXCP sədri Ə.Kərimlinin törəmələridir. Və Avropada oturub, gecə-gündüz, Azərbaycan əleyhinə aksiyalar təşkil etməklə, hökumətin əleyhinə fikirlər söyləməklə daha çox qrant almaq davası aparmaqdadır.

### Ermənidən betər əxlaqsızın söyüş ritorikası

Əxlaqsız deyəndə, başlayırlar ki, heç qadın da qadına belə söz deyər? Bəli, qadın! S.Osmanqızı, Leyla Yunus, Xədicə İsmayıl, Gültəkin Hacıbəyli və... Ə.Kərimli kimi tərbiyəsiz və əxlaqsızın törəmələrinə yox! Azərbaycan dövlətinə qarşı ermənilərdən də betər düşmənçilik mövqeyi sərgiləyən ələ alınmış belə əxlaqsızların mənəviyyatını tamailə qrantlara satana yox! S.Osmanqızının casusluq fəaliyyəti özlərini "siyasi mühacir" adlandıran Orduxanlı, Vidadi İsgəndərli, Qurban Məmmdli və ... kimi ələ alınmışları daha çox söyüş söyməyə, dövlətimizin əleyhinə kəskin çıxışlar etməyə çağırışları, hər gün bu adamları qorxudaraq "sizlər susmamalısınız, daha çox söyüş söyməlisiniz, izləyiçilərinizin sayını artırmalısınız" deməsi, bir daha onun qadın yox, ermənidən betər erməni olduğunu sübut edir. Elə bu gün bütün ailə ondan imtina edir.

Bax, bu yerdə "Qəribi ağlamaq tutur". Hansı həqiqətdən danışırsan, ay qibləsini tanımayan Sevinc Osmanqızı? Ə.Kərimlinin planına əsasən, son günlər Azərbaycandakı islahatları tamamilə fərqli şəkildə dünyaya çatdırmaq istəyən S.Osmanqızıdır ki, onların qibləsi ABŞ-dır.

Beləliklə, istər İ.Məmmədov, istərsə də S.Osmanqızı bir bezin qırağıdır. Kor-kora kor deməsə, bağrı çatlar. Və bu oyun biabırçılıqdır. Viktor Hüqonun gözəl bir sözü var: "Vətənini rüsvay etmək ona xəyanət etmək deməkdir".

Buyurun, görək "xəyanət yarışında" kim özünün mahiyyətini daha çox ortaya qoyacaq. Çünki illər uzunu müstəqil Azərbaycana qarşı hazırlanan planların icrası daim fiaskoya uğrayır. İstəklərinin əksinə olaraq, Azərbaycan daha qüdrətli dövlətə çevrilir, günü-gündən inkişaf edir, təkcə mövcud olduğu regionda yox, onun hüdudlarından kənarda belə böyük nüfuz sahibi kimi çıxış edir.

Azərbaycanın qazandığı uğurların miqyası artdıqca, antiazərbaycançı şəbəkənin qəddi daha çox əyilir, müvəffəqiyyətsizliyindən doğan əsəbi daha çox tarıma çəkilir.

Azərbaycana nifrət edən bu əxlaqsızların əsl üzü budur - "Vətən üçün pis olan, mənə faydalıdır". Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fəraridən başqa bir şey deyil.

*Rəfiqə HÜSEYNOVA*

# Qəsdən adam öldürməkdə şübhəli bilinən Daşkəsən rayon sakini könüllü olaraq polisə təslim olub




Sentyabrın 3-də Binəqədi rayonundakı kafelərin birindən Saatlı rayon sakini Əflan İsgəndərovun bıçaq xəsarəti ilə xəstəxanaya gətirilməsi və orada ölməsi barədə Binəqədi Rayon Polis İdarəsinin 7-ci Polis Bölməsinə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərhal polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Aparılmış istintaq, əməliyyat-axtarış və profilaktiki tədbirlər nəticəsində qəsdən adam öldürməkdə şübhəli bilinən Daşkəsən rayon sakini, əvvəllər dəfələrlə məhkum olunmuş T.İsmayılov könüllü olaraq Binəqədi Rayon Polis İdarəsinin 4-cü Polis Şöbəsinə gələrək istintaqa təslim olub. Faktla bağlı araşdırmalar davam etdirilir.



**Təhmasib Novruzov**

## *Təzə hamamın köhnə tasçıları*

Oxucunun yadına dərhal məşhur atalar sözü düşdü: "Köhnə hamam, köhnə tas." Əminəm ki, atalar sözünə "düzəliş" etdiyimə görə məni qınayanlar da oldu. Yəni köhnə kişilər hər şeyi ölçüb-biçib, təcrübədən keçirib, sonra mükəmməl məsəl qoyub gediblər, kimin ixtiyarı var ki, onların qoyub getdiyi müqəddəs kəlamlara düzəliş eləsin? Belə düşünən oxucularımla yüzə-yüz razıyam. Ancaq nə edəsən ki, bəzən cəmiyyətdə elə hadisələr baş verir ki, onları müşahidə edəndə, babalarımızın yolunun əksinə gedildiyini görürsən və bu yerdə babalarımızın dediklərinə də bir balaca əl gəzdirməyə məcbur olursan. İndi mən deyim, siz də eşidib qiymət verin ki, haqlıyam, ya yox?

Hə, əziz oxucular, atalar bu məsəli yaradıblar ona görə ki, köhnə zamanlarda hər hamamın öz tası, yəni iri su qabı olarmış ki, həmin su qabını, yuyunub qurtarandan sonra, doldurub tökərmişlər başlarından, bununla da, tamamən paklaşarmışlar (hər halda köhnə kişilər belə hesab edərmişlər). Hamam sahibləri başqalarından seçilmək, daha çox müştəri cəlb eləmək üçün hər biri özünə məxsus formada, daha cəlbedici taslar düzəltdirərmiş. Hər dəfə təzə hamam tikiləndə, onun da özünün məxsusi təzə tasını hazırlatdırarmışlar. Yəni hər bir köhnə hamamın köhnə tası olduğu kimi, hər bir təzə hamamın da təzə tası olarmış. İndi bu tarixi ənənəni bir az ictimailəşdirsək, ölkəni bir hamam (müqayisəyə görə məni bağışlasanız, sevinərdim), ölkədəki hadisələri də bir tas hesab eləsək, onda nə demək istədiyim hər kəsə aydın olar. Ötən əsrin sonlarında dağılmaqda olan sovet imperiyasının son nəfəsini də kəsmək üçün yaradılan xalq hərəkatının fəalları, bu imperiyanın həm Kremldəki başbilənlərinə, həm də onların məmləkətimizdəki qulbeçələrinə düşmən münasibət bəsləyirdilər. Həm də haqlı olaraq. Nə az, nə çox, 70 il sənin əsarətdə saxlayan, səsini çıxaran kimi başına qapaz vuran, yüz minlərlə fədai oğullarını məhv edən bir imperiyaya başqa hansı münasibət olmalı idi ki? Nəhayət, o düşməni yendik, onun əsarətindən qurtulduq, azad bir məmləkət olub, öz torpağımızın, öz sərvətimizin sahibinə çevrildik. Sonra da seçkilər keçirib milli parlamentimizi yaratdıq, iqtidarımızı müəyyən elədik, konstitusiyamızı qəbul etdik və s. Bir sözlə, milli dövlətimizi qurduq. Hər şey yeniləndi. Azərbaycan sürətlə inkişaf elədi, bütün sahələrdə gözlənilməz sıçrayışlarla irəlilədik və irəliləməkdə davam edirik. Beləcə, bütün sahələrimiz təzələndi, yalnız bir sahədən başqa. O da ibarətdi bizim əzəli-əbədi müxaliflətimizdən ki, bu zavallılar yeniləşmək istəmirlər ki, istəmirlər. Məsələn, otuz il əvvəl Azərbaycan Sovet Sosialist Respublikasını idarə edənlərə hansı gözlə baxırdısa, indiki iqtidara bu müxaliflər həmin gözlə baxır. Otuz il əvvəl pafoslu, ibarəli nitqlərlə xalqda iqtidara necə nifrət yaratmağa çalışırdısa, indiki iqtidara da bəzi müxaliflər həmin üsulla inamsızlıq yaratmağa çalışırlar. Otuz il əvvəl xalqı iqtidarın üzərinə qaldırmaq üçün hansı üsullardan (xüsusən də, Dağlıq Qarabağda baş verənlərlə bağlı) istifadə edirdiksə, indiki müxaliflər də həmin üsullardan istifadə edirlər. Bunlarda dəyişən tək bir şey var ki, o da özlərinin həyat tərzidi. Vaxtilə yaşadıqları rayonlardan uzağa ayağı dəyməyən bəzi müxalif liderlərinin özləri bir yana, övladlarının səsi Amerikadan, Avropanın və ən irəli getmiş ölkələrindən gəlir. Bakıda da özlərinə, necə lazımsa mülk yaradıblar. Papaqları da yoxdu deyəsən ki, qoy qabağına bir bunları düşün, sonra bağır... Müstəqilliyin ilk illərində VƏTƏN torpaqlarını alver predmetinə çevirən bəzi şərəfini, qeyrətini və vicdanını itirmişlər, bu gün də həmin vasitələrə əl atmağa çalışırlar. Dediyim odur ki, təzələnmiş, güclənmiş, dünyada ilbəil nüfuzu artan ölkənin müxalifəti ya təzələnə bilmir, ya da təzələnmək istəmir. Fərqində deyillər ki (bəlkə də fərqində olmağı sifariş verən ağaları imkan vermir), bu ölkə də, o ölkə deyil, bu millət də o millət deyil. İndi bu milləti köhnə üsulla aldadıb, nəyəsə nail olmağa ümid bəsləmək isə, rəzilliyin sonuna aparan ən optimal yoldur. Xülasə, hamam təptəzə tikilib, bəylər. Köhnə hamamdakı(oxu: Sovet Azərbaycanındakı) taslarınızı (Oxu: siyasi müxaliflik düşüncənizi) yeniləməyin zamanı çatıb da, ötüb də. Bir az da köhnə taslardan imtina eləməsəniz, yeni hamamda yeni taslardan istifadə etməsəniz, onun içindəki su "kislota"ya dönüb, bütün bədəninizi yandıracaq. Yox, əgər dünya malı naminə yanmaq istəyirsinizsə, o siz, o da sizin köhnə tasınız, nə qədər istəyirsiniz Avropada doldursunlar, siz tökün başınızdan. Can sizin, cəhənnəm sizin...

# Azərbaycanda Ombudsmanın insan hüquqları sahəsində maarifləndirmə tədbirləri

***Əhalinin hüquqi baxımdan maarifləndirilməsi, insanların hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi demokratik və hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılmasının mühüm cəhətlərindən olmaqla yanaşı, insan hüquq və azadlıqlarının müdafiəsini daha səmərəli təmin etmək baxımından da, böyük əhəmiyyət daşıyır. Məhz həyata keçirilən hüquqi maarifləndirmə tədbirləri insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi məqsədilə dövlət tərəfindən gerçəkləşdirilən səmərəli fəaliyyətin tərkib hissəsi kimi tanınır.***

Pozulmuş hüquqların bərpası ilə yanaşı, əhalinin hüquq düşüncəsinin inkişaf etdirilməsinə yönəlmiş hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirən Müvəkkil bu fəaliyyətini beynəlxalq və qazanılmış təcrübə əsasında, davamlı olaraq, təkmilləşdirməkdədir.

Müvəkkilin əhalinin müxtəlif kateqoriyalarının hüquqi biliklərə yiyələnməsinə, insan hüquqları sahəsində məlumatlılıq səviyyəsinin artırılmasına yönəlmiş hüquqi maarifləndirmə fəaliyyəti dövlət qurumları, beynəlxalq təşkilatlar, QHT və KİV-lərlə icmalarla qarşılıqlı əməkdaşlıqda inkişaf etdirilir.

İnsan hüquqlarının etibarlı təmin olunması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələri müəyyən edən MFP əhalinin müxtəlif kateqoriyalarının hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılması baxımından, xüsusi əhəmiyyət daşıyır.

2015-ci ildə MFP-nin icrası, təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi, həmçinin, seçki hüququ ilə bağlı əhalinin maarifləndirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası ilə birgə Şəki, Gəncə, Bərdə, Cəlilabad və Qubada ölkənin 54 şəhər və rayonu əhatə olunmaqla, silsilə regional ictimai dinləmələr keçirilmişdir. Həmin tədbirlərdə MSK-nın əməkdaşı, şəhər və rayonlar üzrə icra hakimiyyəti və bələdiyyələrin, dairə və məntəqə seçki komissiyalarının, KİV-lərin, yerli QHT-lərin və icmaların nümayəndələri iştirak etmişlər.

Bakıda təşkil olunmuş yekun ictimai dinləmədə paytaxtın 12 rayonunun, həmçinin, Sumqayıt şəhərinin və Abşeron rayonunun icra hakimiyyətləri və bələdiyyələrin, müvafiq dairə seçki- komissiyalarının, habelə, media nümayəndələri iştirak etmişlər. MFP-nin təbliği və tətbiqi vəziyyətinin monitorinqi məqsədilə həyata keçirilmiş ictimai dinləmələr əhalinin hüquqi maarifləndirilməsinə, vətəndaş fəallığının artmasına, hər kəsin iştirak hüququnun təmin edilməsinə, idarəetmənin demokratikləşməsinə və daha da təkmilləşdirilməsinə xidmət edir.

Milli Məclisə seçkilər ərəfəsində tərtib olunmuş tədbirlər planı əsasında əhali qruplarını əhatə etməklə, hüquqi maarifləndirmə tədbirləri davam etdirilmişdi.

Müvəkkilin təşəbbüsü ilə, ənənəvi olaraq, respublikamızda 18 İyun Milli İnsan Hüquqları Günü ilə bağlı "İnsan Hüquqları Aylığı", 21 Sentyabr Beynəlxalq Sülh Günü ilə bağlı "Sülh Aylığı", BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində "Uşaq Hüquqları Aylığı"nın dövlət qurumlarının, şəhər və rayon icra hakimiyyətlərinin, bələdiyyələrin, vətəndaş cəmiyyətinin fəal iştirakı ilə keçirilməsi də insan hüquq və azadlıqlarının səmərəli təmin olunmasına öz töhfəsini verir. Həmçinin, hər bir aylıqla bağlı görülən işlər təhlil edilərək, Müvəkkilin məqaləsində öz əksini tapmış, "Respublika" qəzetində dərc edilmiş və Müvəkkilin rəsmi saytında yerləşdirilmişdir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsil sisteminin başlıca vəzifələrindən biri kimi məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı tərzdə düşünən vətəndaş və şəxsiyyət yetişdirmək olduğu qeyd olunmuşdur.

Müvəkkilin insan hüquqları sahəsində maarifləndirmə fəaliyyətinin çoxşaxəli istiqamətlərindən olan insan hüquqları sahəsində təhsil ali təhsil ocaqlarında və orta ümumtəhsil məktəblərində inkişaf etdirilməkdədir.

Müvəkkilin təşəbbüsü ilə insan hüquqları təhsili istiqamətində "İnsan hüquqları", habelə, "Genderə giriş" fənlərinin müstəqil bir fənn kimi universitet səviyyəsində tədrisinə nail olunmuş, onların ümumi redaktəsi ilə Bakı Dövlət Universitetində tədris olunan insan hüquqları fənninə dair "İnsan hüquqları üzrə mühazirələr toplusu" dərsliyi hazırlanmış və nəşr edilmişdir. Hazırda Bakı Dövlət Universitetində Müvəkkilin təşəbbüsü ilə "İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO" kafedrası yaradılmış, bakalavr və magistr pilləsində insan hüquqları üzrə kadr hazırlığına başlanılmaqla, bu sahəyə elmi yanaşma nümayiş etdirilir, Təhsil Nazirliyi ilə əməkdaşlıqda orta məktəblərdə həyata keçirilən Uşaq Hüquqları üzrə Pilləli Tədris Proqramı Bakı şəhərində və respublikamızın regionlarında yerləşən məktəblərdə davam etdirilmişdir.

Müvəkkil tərəfindən insan hüquqları sahəsində kadrların hazırlanması işinə də geniş yer verilir. Bu baxımdan, aparatda yaradılmış "İnsan hüquqları sahəsində xüsusi qısamüddətli təhsil şəbəkəsi" də fəaliyyətini davam etdirməkdədir. Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Bakı Slavyan Universitetinin, Azərbaycan Dillər Universitetinin, Qafqaz Universitetinin müxtəlif kurs tələbələri və magistrantları, ardıcıl olaraq, Müvəkkilin Aparatında istehsalat təcrübəsi keçirlər.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, hüquqmühafizə orqanları üçün kadr hazırlığını həyata keçirən Polis Akademiyası, Ədliyyə Akademiyası, Baş Prokurorluğun Tədris Mərkəzi, hərbi sahədə kadr hazırlayan təhsil müəssisələri və digərlərini göstərmək olar ki, həmin tədris müəssisələrinin proqramına, o cümlədən, Müvəkkilin tədbirlər planına əsasən, gənc müdavimlərə, ixtisaslaşmaya cəlb olunmuş şəxslərə, hakimlərə, vəkillərə və dövlət qulluqçularına ünvanlanan ardıcıl seminarlar təşkil olunub ki, bu da, insan hüquqları mədəniyyətinin təbliğinə xidmət edir.

Müvəkkilin regional mərkəzləri də bölgələrdə fəaliyyəti təşkil etməklə, əhalinin müxtəlif qruplarına ünvanlanan geniş hüquqi maarifləndirmə tədbirləri həyata keçirir.

Tədbirlər planına uyğun olaraq, il ərzində qaçqın, məcburi köçkün və miqrantlara, məhkum və hərbi qulluqçulara, qadın, uşaq və gənclərə, ahıllara və əlilliyi olan şəxslərə ünvanlanan tədbirlər keçirilmişdir. Ölkəmizi narahat edən narkomaniya, İİV/QİÇS və digər yoluxucu xəstəliklərlə mübarizə aparılması istiqamətində Müvəkkilin Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən regional mərkəzləri cəlb olunmaqla, yerlərdə silsilə treninq və seminarlar keçirilir, televiziya və radio verilişləri hazırlanaraq, bu xəstəliklərdən əziyyət çəkən insanların cəmiyyətin həyatında iştiraklarının təmin edilməsi, ayrı-seçkiliyə məruz qalmamaları üçün məlumatlandırma məqsədilə silsilə tədbirlər təşkil olunmuşdur.

Müvəkkil və Aparatın əməkdaşları Silahlı Qüvvələrin və digər silahlı birləşmələrin bir sıra hərbi hissələrində olmuş, hərbi qulluqçuların vəziyyətinin öyrənilməsi ilə yanaşı maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Müvəkkilin uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsində və onun nəzdində "Azərbaycan Yurdum Mənim" devizi ilə fəaliyyət göstərən "Liderlik məktəbi"ndə, hər il olduğu kimi, müntəzəm olaraq, uşaqların iştirakı ilə Uşaq Hüquqları Konvensiyasının müddəalarına əsaslanan treninqlər, vətənpərvərlik ruhunda maarifləndirmə tədbirləri keçirilmiş, onların problemləri müzakirə olunmuş və şəbəkə üzvlərinin asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə muzeylərə və tarixi yerlərə səfərlər təşkil edilmişdir.

Müvəkkilin fəaliyyəti dövründə 165, o cümlədən, 2015-ci ildə 15 adda nəşr hazırlanmış, çap olunmuş, 23-dən artıq insan hüquqlarına və layiqli idarəetməyə dair xarici ədəbiyyat dilimizə, o cümlədən, Azərbaycan dilində olan 49 vəsait igilis dilinə, 37-si isə rus dilinə tərcümə olunaraq çap edilmiş, geniş oxucu auditoriyası arasında yayılmış və kitabxanalara paylanmışdır. 2015-ci ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən növbəli IV Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında təsisatın çap məhsulları (kitab, plakat, buklet və liflet) nümayiş etdirilmişdir. Təsisat IV Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında fəal iştirakına görə, diplomla təltif olunmuşdur.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 6 sentyabr


## Ətir ətirə bənzəməz...

Hər ətir bir xatirə daşıyıcısıdır. Sitrus meyvələrinin ətri xoşbəxtlik ovqatı yaradır, lavanda rahatlıq bəxş edir, nanə soyuqluq və sərinlik gətirir. Bəzən yüksək konsentrasiyada olan bir ətir xoşa gəlməyə bilər. Gözəl ətirləri özündə cəmləyən çəmənlik mehi xoş təsir bağışlayır, ancaq eyni bitkilərdən hazırlanan ağır bir ətir narahatedici ola bilər.

AZƏRTAC tibbi saytlara istinadən bildirir ki, qoxulara qarşı həssaslıq daha az olsaydı, təhlükəli vəziyyətləri hiss etmək olmazdı. Ətirlər qəbul edilən qida haqqında ilk informasiya daşıyıcılarıdır. Məsələn, cəfəri görünüş cəhətdən zəhərli baldırğana çox bənzəyir, lakin qoxusu tamamilə fərqlidir.

Vanil, kakao, darçın, portoğal, berqamot qoxuları iştahaaçan qoxular sayılır. Araşdırmalara əsasən, iştaha artıran ətirlərlə yanaşı, iştahanı kəsən və toxluq hissi yaradan ətirlər də mövcuddur. Pəhriz saxlayanlar ətirlərə qarşı xüsusilə diqqətli olmalıdırlar. İştaha mərkəzini sakitləşdirən və toxluq hissi yaradan ətirlər siyahısına yaşıl alma, banan, nanə və sarıkök ətri başçılıq edir.

Aparılan təcrübələrin birində 3 min nəfər hər gün yeməkdən əvvəl yaşıl alma, banan və nanə qoxulayıb. Həmin araşdırma nəticəsində pəhriz saxlayanların 5 kiloqram çəki itirdiyi məlum olub.

## Vəfalı it sahibinin cəsədini bir aydan çox qoruyub



Təxminən bir ay əvvəl itkin düşmüş Sankt-Peterburqdan olan 66 yaşlı turistin cəsədi Murmansk vilayətindəki tundrada aşkarlanıb. TASS informasiya agentliyi xəbər verir ki, Rusiya İstintaq Komitəsinin məlumatına görə, cəsədin yanında turistin itini görüblər. Retriver cinsindən olan it bu müddət ərzində xeyli arıqlasa da, sahibinin cəsədini tərk etməyib.

Təhqiqatçıların sözlərinə görə, 1953-cü il təvəllüdlü Sankt-Peterburq sakini iyulun 27-də Murmansk vilayətinə gəlib. Avtomobilini dayanacaqda saxlayaraq saamların müqəddəs saydıqları və turistlər arasında populyar olan Seyd gölünə yollanıb. Gedərkən bir gün sonra qayıdacağını deyib. Lakin bundan sonra onunla əlaqə kəsilib. Turistin cəsədi sentyabrın 2-də dayanacaqdan 3,5 kilometr aralıda aşkarlanıb. Müstəntiqlər meyitin üzərində zorakılıq əlamətlərinin olmadığını bildiriblər.

## Məhəmməd Mursinin oğlu vəfat edib



Misirin devrildikdən sonra həbs olunan, daha sonra məhkəmə salonunda ölən mərhum prezidenti Məhəmməd Mursinin kiçik oğlu Abdullah Mursi vəfat edib. SİA-nın xarici mətbuata istinadən məlumatına görə, A.Mursinin ölümünə səbəb infarkt keçirməsi olub. Qardaşının ölüm xəbərini təsdiqləyən Məhəmməd Mursinin böyük oğlu Əhməd Mursi bildirib ki, infarkt keçirəndən sonra xəstəxanaya aparılan Abdullah Mursinin həyatını xilas etmək mümkün olmayıb. Qeyd edək ki, Misirin devrilmiş prezidenti Məhəmməd Mursi iyun ayında məhkəmə salonunda keçirdiyi infarkt nəticəsində ölmüşdü.

## "Nar" abunəçilərinin nəzərinə!

**17.09.2019-cu** il tarixindən etibarən "XL", "2XL", "3XL", "XL Moderm", "2XL Moderm" internet paketlərində dəyişikliklər olacaq. Daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

## ELAN

**Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsində yerləşən Kərimov Məhəmməd Zeynalabdin oğluna məxsus 4258B, 4208B, 4245A və 45/4022 bağ evlərinin çıxarışları itdiyi üçün etibarsız sayılır.**

## Rayan Giqqz: "Azərbaycanın Xorvatiya ilə oyununu əsas götürmüşük"




"Heyətlə bağlı ciddi problem yoxdur. Yalnız Ben Vudbern özünü yaxşı hiss etmirdi. Oyun günü baxacağıq". Bunu Uels yığmasının futbolçusu Rayan Giqqz Azərbaycan millisi ilə Kardiff şəhərində keçirəcəkləri Avro-2020-nin seçmə matçından əvvəl mətbuat konfransında deyib. 46 yaşlı mütəxəssis bildirib ki, komandası ev oyunlarında mütləq qalib gəlməlidir: "İki məğlubiyyətimiz olub. Ona görə də bu görüşdə qələbə bizim üçün çox önəmlidir. Ev matçlarında qalib gəlməliyik. İlk görüşümüz də evdə idi. Azarkeşlər bizə yaxşı dəstək verirlər".

Lakin Giqqz oyunun çətin alınacağını vurğulayıb. O, səbəb kimi Azərbaycan millisinin matçların hamısında qol vura bilməsini göstərib. Baş məşqçi təkcə Qaret Beylə deyil, bütün oyunçulara inandıqlarını vurğulayıb: "Beyl lider kimi kapitan olmağa layiqdir. Onun qol vurmasını çox istəyirik. Çünki bu zaman özünəinam hissi artır. Digər futbolçularımızın da öz potensiallarını göstərəcəklərinə inanırıq. Ben Devislə danışmışam, özünü çox yaxşı hiss edir. Həmçinin Nil Teylor da son görüşlərdə iştirak edib. Hər ikisi təcrübəlidir. Onlara güvənirik".

Giqqz Azərbaycan millisi ilə bağlı da təəssüratlarını bölüşüb: "Rəqibimizin çox istedadlı oyunçuları var. Xüsusən də Riçard Almeydanı qeyd edərdim. Rəqibin əks-hücumlarına hazırlaşmışıq. Çalışacağıq ki, buna imkan verməyək. Sağ və sol cinah müdafiəçiləri də çox sürətlidirlər. Biz Azərbaycanın Xorvatiya ilə oyununu əsas götürmüşük. Bundan əvvəl iki məğlubiyyətimiz olub. Bu oyun bizim üçün çox önəmlidir. Əvvəllər düşünürdülər ki, Xorvatiya və Uels favoritdir. Lakin Macarıstan da müsbət nəticələr qazanır. Ağır qrupdayıq". Qeyd edək ki, sentyabrın 6-da Uels və Azərbaycan yığmaları arasında Kardiff şəhər stadionunda keçiriləcək matç Bakı vaxtı ilə saat 22:45-də başlayacaq

## Şahmatçımız Abdulla Qədimbəyli Sankt-Peterburqda ikinci olub



Azərbaycan şahmatçısı Abdulla Qədimbəyli Sankt-Peterburqda təşkil olunan beynəlxalq turnirdə uğurla çıxış edib. AZƏRTAC xəbər verir ki, on turdan 5,5 xal toplayan A.Qədimbəyli turniri ikinci pillədə başa vurub. Digər şahmatçılarımız Əhməd Əhmədzadə 5 xalla dördüncü, Azər Mirzəyev isə 4,5 xalla altıncı olub. Turnirin qalibi adına 6 xalla Belarus idmançısı Valeriy Kazakovskiy yiyələnib.

## Azərbaycan boksçuları dünya çempionatında tam heyətlə çıxış edəcəklər




Sentyabrın 8-də Rusiyanın Yekaterinburq şəhərində kişi boksçular arasında dünya çempionatı start götürəcək. 14 gün davam edəcək mundialda Azərbaycan millisi də qüvvəsini sınayacaq. AZƏRTAC Azərbaycan Boks Federasiyasına istinadla xəbər verir ki, ölkəmiz yarışda tam heyətlə təmsil olunacaq. Baş məşqçi Nəriman Abdullayev dünya çempionatında Məsud Yusifzadə (52 kq), Tayfur Əliyev (57 kq), Bəxtiyar Qazıbəyov (63 kq), Lorenzo Sotomayor (69 kq), Amin Kuşkov (75 kq), Alfonso Dominqes (81 kq), İsmayıl Yaqubov (91 kq) və Məhəmməd Abdullayevə (91 kq-dan yuxarı) şans verəcək. Dünya çempionu Cavid Çələbiyev, Olimpiya mükafatçısı Kamran Şahsuvarlı zədə səbəbindən mundialı buraxacaqlar. Üççat dünya çempionu Məhəmmədrəsul Məcidov isə peşəkar boksa keçdiyindən millidə yer almayacaq. Qeyd edək ki, dünya çempionatı yeni qaydalara əsasən 8 çəkidə təşkil olunacaq. Yekaterinburqda EXPO Arenada baş tutacaq yarışda 87 ölkədən 450 boksçu mübarizə aparacaq. Açılış mərasimi sentyabrın 8-də olacaq mundialda təsnifat mərhələsinin döyüşləri ayın 9-17-də keçiriləcək. Sentyabrın 18-də boksçular 1/4 final mərhələsinin qarşılaşmalarına çıxacaqlar. Ertəsi gün istirahət edəcək idmançılar sentyabrın 20-də yarımfinal görüşlərini keçirəcəklər. Qaliblərin adına isə ayın 21-də aydınlıq gələcək.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**